

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

11 mart 2025-ci il, çərşənbə axşamı
№ 044 (6872)
Qiyməti 60 qəpik




# Minimum əmək haqqı yüksəlib, müavinət və təqaüdlər artırılır...

Bax səh. 2

# Azərbaycanlıların tarixi torpaqlarına dinc və ləyaqətli qayıdışı...

Bax səh. 2



## Türk dövlətlərinin yeni hədəfləri

2024-cü ildə Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin qarşılıqlı ticarət dövriyyəsi əhəmiyyətli həcmlərdə artaraq 58,17 milyard dollara çatıb. Qlobal xarici ticarət portfelində ümumi ticarət dövriyyəsi 850 milyard dollar təşkil edən türk dövlətlərinin qarşılıqlı mal mübadiləsinin payı 3 faizdən 7 faizə yüksəlib. Hədəf isə beynəlxalq ticarətdə türk ölkələrinin öz aralarındakı dövriyyəsinin 10 faizə çatdırılmasıdır.

TDT-nin baş katibi Kubanıçbek Ömuralıyev "Euroreporter"a müsahibəsində bildirib ki, təşkilat daha inteqrasiya olunmuş və nüfuzlu birliyə çevrilmək üçün bütün imkanlara malikdir. Öz maraq və dəyərlərinə uyğun olaraq beynəlxalq arenada öz mövqelərini gücləndirən türk dövlətlərinin əsas ana konseptlərindən biri iqtisadi gücü vahid blokda inkişaf etdirməkdir. K.Ömuralıyev qeyd edib ki, TDT ölkələri arasında böyük iqtisadi potensial var, hazırda həmin potensialın az bir hissəsi ticari mübadilələrə cəlb olunub. Bu imkanları ən azı 3-4 dəfə inkişaf etdirmək mümkündür.

Türk dövlətləri 2025-ci ildə birgə ticarəti ən azı 60 milyard dollara, əlavə dəyərləri isə 2 trilyon dollara çatdırmağı hədəfləyir. Ona görə də türk dövlətləri öz iqtisadi güc və potensiallarını vahid zəncirdə birləşdirməklə regionda və dünyada qlobal ticarətin və iqtisadiyyatın inkişafında rolunu artımaq niyyətindədir.

TDT ölkələri ticarət dövriyyəsinin artırılması üçün bir sıra hədəf nöqtələri müəyyənləşdirib ki, onlardan biri Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunda (Orta Dəhliz) nəqliyyat və logistikada bağlantılarını inteqrasiya etmək, dəhlizin daşıyıcılıq gücünü və rentabelliyini möhkəmləndirməkdir.Bu məqsədlə Orta Dəhliz boyunca infrastrukturun təkmilləşdirilməsi, azad gömrük və ticarət rejimlərinin təmin edilməsi istiqamətində ardıcıl tədbirlər görülməkdədir. TDT-nin baş katibi qeyd edib ki, hazırda nəqliyyat və gömrük əməkdaşlığı dərinləşdirilib və sadələşdirilmiş gömrük dəhlizinin formalaşdırılması işləri yekunlaşmaqdadır. Bu sahədə ən mühüm sazişlərdən biri sadələşdirilmiş gömrük dəhlizinin yaradılması ilə bağlı sazişdir. Sənəd qarşılıqlı ticarət əməliyyatları zamanı gömrük prosedurlarının asanlaşdırılması və daşınma-logistika rejiminin yumşaldılmasını, eləcə də ticarətin elektronlaşdırılmasını, rəqəmsal məlumat mübadiləsini nəzərdə...

Bax səh. 6

Bax səh. 3

## İƏT-in fəal və məsuliyyətli üzvü...

## Bu dəfə Ciddədə ...

Bax səh. 5

## Fransanın əsassız iddiaları...

Bax səh. 4

## Fikirdə, əməldə birlik!

Bax səh. 6

## "Küləkli çərşənbə"

Bax səh. 8



## Ermənistan revanşizm və sürətli silahlanma yolunda

Son vaxtlarda Ermənistanla Hindistan arasında hərbi sahədə əməkdaşlıq daha da intensivləşib. Bu günlərdə Ermənistanın Hindistandakı səfiri Vaaqn Afyan Müdafiə Nazirliyində Hindistan Müdafiə Nazirliyinin beynəlxalq əməkdaşlıq üzrə birgə katibi Vişveş Neqi ilə görüşüb. V.Neqi Ermənistanın Hindistandakı hərbi attaşesi polkovnik Arkadi Tonoyanın mühüm missiyasını alqışlayıb. Bu barədə Ermənistanın Hindistandakı səfirliyi məlumat yayıb. Bildirilib ki, tərəfər iki ölkənin müdafiə nazirlərinin görüşündən sonra əldə olunmuş razılaşmaların həyata keçirilməsi, qarşılıqlı səfərlərin təşkili, müdafiə sahəsində məsləhətləşmələrin davamlılığının təmin edilməsi, qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi məsələlərini müzakirə ediblər.

Eyni zamanda, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın Hindistana səfəri çərçivəsində bu ölkənin xarici işlər naziri Subrahmanyam Caişankar və digər rəsmi şəxslər arasında görüşləri baş tutub. Bu görüşlərdə də əsas müzakirə mövzularından biri müdafiə sahəsində əməkdaşlıq olub.

Göründüyü kimi, iki ölkənin rəsmiləri davamlı olaraq bir araya gələrək qeyd olunan istiqamətdə əməkdaşlığın daha geniş imkanlarını axtarılar ki, bu da suallar yaratmaya bilməz. Sözdə sülhyaratma prosesinə sadiqlikdən danışan Ermənistan rəsmilərinin reallıqda buna zidd olan mövqe sərgiləmələri, o cümlədən Hindistanla hərbi sahədə əməkdaşlığı güclədirməklə bağlı müzakirələr aparmaları hansı məqsədə xidmət edir?

Bu gün məğlub Ermənistana revanşizm əhval-ruhiyyəsi hakim kəsilib, desək, əsl həqiqəti ifadə etmiş olarıq. Revanşistər həm iqtidar komandasında, həm də müxalifət düşərgəsində yer alırlar. Eyni zamanda, onlar bəzi xarici qüvvələr tərəfindən dəstəklənirlər. Cənubi Qafqaz coğrafiyasında siyasi və iqtisadi məqsədlər güdən Fransa kimi ölkələr özlərinin regional maraqlarına Ermənistan üzərindən nail olmağa çalışırlar və bu məqsədlə rəsmi İrəvanı yeni müharibəyə təhrik edirlər.

Ermənistanın yeni müharibəyə təhrik...

Bax səh. 5

## Keçmiş "baş bankir" ABŞ-a qarşı...



Bax səh. 7

## Suriyada gərginlik davam edir



Bax səh. 7

# Minimum əmək haqqı yüksəlib, müavinət və təqaüdlər artırılır...

Məlum olduğu kimi 2025-ci ilin yanvar ayından etibarən ölkəmizdə beşinci sosial islahat paketi çərçivəsində sosial artımların icrasına start verilib. Dövlət başçısının imzaladığı “Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında” sərəncamına uyğun olaraq, ilk növbədə, minimum əməkhaqlarının artımı təmin edilib. Minimum aylıq əməkhaqqının məbləği 16 faiz artırılaraq 345 manatdan 400 manata çatdırılıb. Bu artımlar sayəsində dövlət və özəl sektorda çalışan insanların maaşlarının ən aşağı məbləği 400 manat təşkil etməkdədir.

Minimum əmək haqqındakı artım sadəcə aşağı maaş alanların deyil, eləcə də vahid tarif cədvəlinin (VTC) bütün pillələri üzrə əmək haqlarında artımlarını təmin etməkdədir. Belə ki, dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşları da təxminən bir ay müddətində bu sərəncama uyğunlaşdırılacaq və artırılacaq. Sosial, elm, səhiyyə, mədəniyyət, gənclər və idman, kənd təsərrüfatı, ekologiya və ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat və rabitə, meliorasiya, su təsərrüfatı və balıqartırma sahələrində çalışan dövlət qulluqçusu statusu olmayan işçilərin də əmək haqqında artımlar qeydə alınmaqdadır.

## Peşə hazırlığı ilə bağlı təqaüdlər 14 faiz artırılıb



Ölkə üzrə ən əhatəli artımlardan biri olan əmək pensiyalarının indeksasiyası da tam təmin edilib və indeksləşdirmə bütün növ əmək pensiyaçılarına şamil olunub. “Əmək pensiyaları haqqında” Qanunun 4-cü maddəsinə əsasən, yaşa görə əmək pensiyası, əlilliyə görə əmək pensiyası və ailə başçısını itirməyə görə əmək pensiyasıdır. Ona görə də, növündən asılı olmayaraq bütün əmək pensiyaçılarının pensiya məbləğində indeksasiyalar üzrə artımlar hesablanaraq ötən aydan ödənişi təmin edilib. Həmin pensiyaçıların təqaüdləri 8,4 faiz artıb.

Ötən aydan qüvvəyə minən minimum pensiya məbləğinin artımları da artıq təmin olunub və həmin pensiyaçılar 320 manat məbləğində təqaüdlərini əldə ediblər. Eləcə də ünvanlı dövlət sosial yardımı ilə bağlı artımlar da yanvardan hesablanmaqla hazırda bu vəsaiti alan ailələrə artımlarla birgə ödənilməkdədir.

Minimum əmək haqqı artımından sonra bir sıra təqaüdlərdə də artımlar öz həllini tapıb. “Məşğulluq haqqında” qanuna əsasən, Azərbaycanda peşə hazırlığına cəlb olunmuş şəxslərə minimum əməkhaqqının 50 faizi məbləğində təqaüd verilir. 2025-ci ilin yanvar ayından minimum əmək haqqı 345 manatdan 400 manatadək yüksəldiyindən bu təqaüd məbləği də artırılıb. Əvvəllər həmin vətəndaşlarımıza ödənilən aylıq məbləğ 172.5 manat idisə, indi həmin təqaud artırılaraq 200 manat olub. Bu o deməkdir, peşə hazırlığına cəlb olunmuş şəxslərə verilən təqaüd məbləği 14 faiz artırılıb. Yaxın günlərdə digər təqaüdlərdə də artımlar təmin ediləcək.

Sosial paket çərçivəsində nəzərdə tutulan bir sıra müavinətlərdə də artım reallaşmaqdadır. Həmin artımların da artmasına əsas hüquqi-iqtisadi təminat verən amil minimum əmək haqqı məbləğinin dəyişməsidir. Çünki ölkəmizdə bəzi sosial müavinətlərin məbləği minimum əmək haqqı ilə birbaşa bağlıdır və minimum əmək haqqındakı dəyişiklik onların məbləğində artımlar ilə müşahidə olunur. Onlardan biri cəza çəkməkdən azad edilmiş tibbi və sosial yardıma ehtiyacı olan şəxslərə ödənilən müavinətlərdir. Həmin müavinətin məbləği minimum əmək haqqının 4 misli həcmindədir. Bu o deməkdir ki, həmin müavinətin məbləği də artıq 1380 manatdan 1600 manatadək yüksəlir.



## Sosial paket üzrə bütün artımlar da təmin ediləcək



Həmçinin, özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisinə və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə ödənilən aylıq müavinətlərin məbləği də artırılıb. Belə ki, peşə əmək qabiliyyəti itirildikdə - minimum aylıq əməkhaqqının əmək qabiliyyətinin itirilmə faizi məbləğində ödənilir. Məsələn, peşə əmək qabiliyyətini itirmə faizi 80 faizdirsə o zaman həmin aylıq müavinətin məbləği 276 manatdan 320 manatadək artırılıb.

Belə hallarda dünyasını dəyişənlərin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə aylıq müavinətin məbləği isə 345 manatdan 400 manata çatdırılıb.

Artımın baş verdiyi digər ödəniş dəfn üçün müavinətdir. Belə ki, əmək pensiyaçıları vəfat etdikdə isə əmək pensiyasının minimum məbləğinin üç misli məbləğində ödəniş edilir. Bu o deməkdir ki, pensiyaçı vəfat etdikdə dəfn üçün müavinət 840 manatdan 960 manata yüksəldilib.

Minimum əmək haqqı ilə bağlılığı olmayan bir sıra sosial müavinət və təqaüdlərin artımları isə yaxın günlərdə öz həllini tapacaq. Dövlət başçısı tərəfindən sosial müavinətlər və təqaüdlərin artırılması ilə bağlı Nazirlər Kabinetinə verilmiş tapşırığa əsasən, bu istiqamətdə təkliflərin hazırlanması yekunlaşmaqdadır. Həmin sosial təkliflər toplusu ilə bağlı mart ayının sonlarında yekun qərar verildikdən sonra mövcud olacaq hüquqi mexanizmə əsasən, sosial paket üzrə bütün artımlar da təmin ediləcək.

***E.CƏFƏRLİ***

# Azərbaycanlıların tarixi torpaqlarına dinc və ləyaqətli qayıdışı...

## “Qərbi Azərbaycana qayıdış prosesində QHT-lərin rolu” mövzusunda ictimai dinləmə keçirilib




Martın 10-da Milli Məclisdə İctimai birliklər və dini qurumlar komitəsinin təşkilatçılığı ilə “Qərbi Azərbaycana qayıdış prosesində QHT-lərin rolu” mövzusunda ictimai dinləmə keçirilib. Tədbirdə Milli Məclisin deputatları, Prezident Administrasiyasının, parlament Aparatının nümayəndələri, Qərbi Azərbaycan İcmasının üzvləri, aidiyyəti dövlət qurumlarının, Qeyri-Hökumət Təşkilatlarının təmsilçiləri və digər şəxslər iştirak ediblər.

Çıxış edən Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa ictimai dinləmənin mövzusunun aktuallığından söz açaraq bu ilin fevralında Bakıda keçirilən Asiya Parlament Assambleyasının yekununda qəbul olunan Bakı Bəyannaməsində Qərbi Azərbaycandan olan soydaşlarımızın öz yurdlarına ləyaqətli qayıdışının həyata keçirilməsi ilə bağlı müddəaların öz əksini tapmasının əhəmiyyətindən danışıb. Vurğulanıb ki, Ermənistandan qovulmuş azərbaycanlıların tarixi torpaqlarına dinc və ləyaqətli qayıdışı konsepsiyasının beynəlxalq platformalarda tanınması bu soydaşlarımızın hüquqlarının bərpası və ata-baba yurdlarına qayıtmalarının təmin olunması səylərinə böyük impuls verir.

Fazil Mustafa bu işin davam etdirilməsi üçün vətəndaş cəmiyyəti institutlarının prosesə daha fəal cəlb olunması, o cümlədən parlamentlərarası platformalarda daha fəal olmaq üçün QHT-lərlə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı fikirlərini bölüşüb.

Sonra Milli Məclisin Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun rəhbəri, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri Əziz Ələkbərov çıxış edib. O deyib ki, ötən dövrdə parlamentdə Qərbi Azərbaycana qayıdışla bağlı müxtəlif komitələr tərəfindən beş, Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupu tərəfindən bir ictimai dinləmə keçirilib.

Ə.Ələkbərov Qərbi Azərbaycana dinc yolla və ləyaqətli şəkildə qayıdış işində QHT-lərin üzərinə düşən vəzifələr, xalq diplomatiyasında onların iştirakı, təcrübəli QHT-lərin beynəlxalq əməkdaşlığının gücləndirilməsi kimi məsələlər barədə fikirlərini bildirib.

Sonra QHT-lərə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva Agentliyin Qərbi Azərbaycan mövzusunda həyata keçirilən fəaliyyəti haqqında slaydlarla müşayiət olunan təqdimatı diqqətə çatdırıb. Aygün Əliyeva QHT-lərə Dövlət Dəstəyi Agentliyinin Qərbi Azərbaycana qayıdış konsepsiyası üzrə strategiyası, bu istiqamətdə həyata keçirilən qrant layihələri, onların məzmunu, yekunları və nəticələri barədə ətraflı məlumat verib. Onun sözlərinə görə, BMT-nin İnsan Hüquqları Şurasının növbəti sessiyasında Qərbi Azərbaycanla bağlı yan tədbir təşkil ediləcək. Həmin tədbir Azərbaycanın haqlı mövqeyinin beynəlxalq səviyyədə daha geniş şəkildə müzakirə olunmasına və Qərbi Azərbaycanla bağlı aktual məsələlərin diqqətə çatdırılmasına xidmət edəcək.

Tədbirdə Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, İctimai birliklər və dini qurumlar komitəsi sədrinin müavini Sahib Alıyev, Elm və təhsil komitəsi sədrinin müavini Fariz İsmayılzadə, Əmək və sosial siyasət komitəsi sədrinin müavini Elşad Musayev, deputatlar Məlahət İbrahimqızı, Tənzilə Rüstəmxanlı, Ceyhun Məmmədov, Rizvan Nəbiyev, Azər Allahverənov, Milli QHT Forumunun İdarə Heyətinin sədri Ramil İskəndərli, “Bakı Qeyri-Hökumət Təşkilatlarının Resurs və Təlim Mərkəzi” İctimai Birliyinin sədri Rauf Zeyni, “Bakı Politoloqlar Klubu” İctimai Birliyinin sədri Zaur Məmmədov, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Mirzəyev, “Qarabağın Tərəqqisi Naminə” İctimai Birliyinin sədri Şəbnəm Səfərova, “Cəmiyyətin İnkişafı Mərkəzi” İctimai Birliyinin sədri Əhməd Abbasbəyli, Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının sədri Misir Mərdanov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Mahirə Hüseynova, “Azərbaycan Milli Kulinariya Assosiasiyası” İctimai Birliyinin sədri Tahir Əmiraslanov, “Vətəndaşların Sosial Rifahı Naminə” İctimai Birliyinin sədri İradə Rizazadə çıxış ediblər, fikir və təkliflərini səsləndiriblər.



Çıxış edənlər Qərbi Azərbaycana qayıdışla bağlı Milli Məclisdə keçirilən dinləmələrin əhəmiyyətini qeyd ediblər, bu müzakirələrin azərbaycanlıların Ermənistandan deportasiya edilməsi ilə bağlı həqiqətlərin beynəlxalq müstəviyə çıxarılması, soydaşlarımızın öz ata-baba yurdlarına qayıdış hüququnun beynəlxalq miqyasda tanınması, tarixi ədalətin bərpası baxımından əhəmiyyətini vurğulayıblar.

İctimai dinləmədə Qərbi Azərbaycandakı yurd-yuvalarından qovulmuş azərbaycanlıların doğma torpaqlarına qayıtmaq hüququnun təmin olunması, bu məsələnin beynəlxalq müstəvidə daha geniş şəkildə işıqlandırılmasında QHT-lərin, xalq diplomatiyasının rolu, Qərbi Azərbaycana təhlükəsiz və ləyaqətli qayıdışın digər aspektləri mövzusunda fikir mübadiləsi aparılıb.

Komitə sədri Fazil Mustafa müzakirələrin yekununda bu ictimai dinləmədə səmərəli fikir mübadiləsinin keçirildiyini söyləyərək, öz tarixi torpaqlarından qovulmuş azərbaycanlıların doğma yurdlarına qayıdışının təmin edilməsinin aktuallığından, tədbirdə səslənən fikirlərin ictimai əhəmiyyətindən bəhs edib. O, Qərbi Azərbaycana dinc və ləyaqətli qayıdışın yaxın zamanlarda gerçəkləşdiriləcəyinə inamını ifadə edib.

***Nardar BAYRAMLI***

# Enerji müstəqilliyimizi gücləndirən layihə

## İğdır-Naxçıvan qaz kəmərinin istifadəyə verilməsi Azərbaycan və Türkiyə bağlantısını daha da möhkəmləndirəcək





**Türkiyə və Azərbaycan arasında iqtisadi əlaqələr, xüsusilə enerji və nəqliyyat sahəsində əməkdaşlıq son illərdə daha da möhkəmlənərək strateji müttəfiqliyin zirvəsinə yüksəlib. İki qardaş ölkənin dövlət başçılarının, hökumət nümayəndə heyətlərinin ardıcıl davamlı səfərləri iqtisadi əlaqələrin dinamikasını daha da gücləndirib, iqtisadi-ticari, investisiya dövriyyələri əhəmiyyətli həcmlərdə artıb. Birgə təşəbbüskarlıq hər il enerji-nəqliyyat və digər sektorlarda yeni layihələrin ərsəyə gəlməsinə səbəb olur. Bu baxımdan martın 5-də Prezident İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın videobağlantı formatında açılışını etdikləri İğdır-Naxçıvan qaz boru kəməri layihəsi iki ölkənin qətiyyətinin və iqtisadi iradəsinin növbəti təzahürü hesab edilə bilər.**

**Türkiyə və Azərbaycan əsasını qoyduğu meqalayihələrlə həm də regionun xəritəsini dəyişir. Azərbaycan Prezidentinin bəyan etdiyi kimi qardaş ölkə nəhəng layihələr reallaşdır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP kimi neft-qaz boru xətləri layihələri hər iki ölkə ilə bərabər, digər dövlətləri birləşdirir, Avrasiyanın enerji xəritəsini dəyişdirib. Bu gün Azərbaycandan Türkiyə ərazisindən gedən qaz bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir. Türkiyədən başqa 11 ölkə, onlardan 10 Avropa ölkəsi Azərbaycan qazını alaraq öz enerji təhlükəsizliyini gücləndirir. Eyni zamanda, birgə həyata keçirilən nəqliyyat layihələri bölgədə əməkdaşlıq üçün imkanlar yaradır. Türkiyəni Azərbaycanla birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu çox gözəl üstünlüklər təmin edir, təkcə bu iki ölkə üçün deyil, həm daha geniş coğrafiya üçün sıx əməkdaşlıq bağlantılarını möhkəmləndirir. Xüsusilə də Türk dünyasını birləşdirir. Bir sözlə, Türkiyə ilə Azərbaycan arasındakı birlik, qardaşlıq bütün Türk dünyasına böyük bir töhfədir.**




### Strateji müttəfiqlik problemlərin uğurla həllinə imkan yaradır

İki ölkənin müəllifi olduğu enerji-nəqliyyat layihələri yalnız iqtisadi deyil, həm də siyasi və strateji əhəmiyyətə malikdir. Strateji müttəfiqlik əlaqələrinin inkişafı ölkələrimiz qarşısında duran problemlərin uğurla həllinə imkan yaradır. Bu işbirliyinin mühüm nəticələrindən biri də illərdir Ermənistanın yaratdığı blokada şəraitində yaşamağa məcbur olan Naxçıvan Muxtar Respublikasının enerji təminatının daha etibarlı səviyyəyə çatdırılmasıdır. Azərbaycan və Türkiyə liderlərinin uzaqgörən siyasətinin nəticəsi kimi ərsəyə gələn İğdır-Naxçıvan qaz kəməri məhz bu məqsədlərə xidmət edir.

İğdırdan Sədərək rayonuna qədər uzunluğu 97,5 kilometr olan İğdır-Naxçıvan qaz xətti gündə 2 milyon kubmetr, ildə isə 730 milyon kubmetr qaz ötürmək qabiliyyətinə malikdir ki, bununla da Naxçıvanın qaza tələbatı sabit və etibarlı bir mənbədən tam qarşılanacaq. Qeyd edək ki, hazırda Naxçıvan qazla Azərbaycan və İran arasındakı svop müqaviləsi əsasında təmin olunur, İğdır-Naxçıvan xəttinin istifadəyə verilməsi bu asılılığı tamamilə aradan qaldıracaq, enerji təhlükəsizliyi möhkəmlənəcək. Gələcəkdə çox artırılması nəzərdə tutulur. Layihə, eyni zamanda, Azərbaycanın enerji müstəqilliyini gücləndirəcək, həm də Türkiyə ilə iqtisadi bağları daha da möhkəmləndirəcək.



### İqtisadi hədəf 15 milyard dollar ticarət dövriyyəsidir

Son 2 ildə Azərbaycan və Türkiyə arasında qarşılıqlı ticarət dövriyyəsinin həcmi 8 milyard dollara çatıb, qardaş ölkə respublikamızın ümumi ticarət portfelində ikinci yerdə qərarlaşıb. Türkiyə və Azərbaycanın əsas hədəfi ticarət dövriyyəsinin həcmini 15 milyard dollara qədər yüksəltməkdir. Bu hədəfə çatmaq üçün davamlı tərəflər kompleks tədbirlər həyata keçirir. Həmin tədbirlərdən biri kimi Preferensial Ticarət Sazişi mühüm əhəmiyyət daşıyır. Saziş 15 mal qrupu üzrə tariflərin azaldılması, qeyri-tarif maneələrinin aradan qaldırılması ilə iki ölkə arasındakı idxal-ixrac əməliyyatlarını artıraraq ölkələrin qoyduqları ticarət dövriyyəsi hədəfinə çatmasını sürətləndirəcək və eyni zamanda, sərmayələr üçün yeni axını təmin edəcək.

Türkiyə və Azərbaycan Şərq-Qərb və Orta Dəhlizdə qarşılıqlı əməkdaşlığı möhkəmləndirərək tranzit-nəqliyyat potensialını daha da inkişaf etdirməkdədir. Orta Dəhlizin ən mühüm nəqliyyat axınlarından biri kimi strateji əhəmiyyətini artıran Bakı-Tbilisi-Qars yolunun genişləndirilməsi sayəsində yeni nəqliyyat sxeminin əsas qolu olan Qars-İğdır-Naxçıvan dəmir yolu nəqliyyat şəbəkələrinin inteqrasiyasına səbəb olacaq. Bu dəmir yolu xətti Naxçıvan vasitəsilə Türkiyə və Avropaya çıxış imkanlarını artıracaq. Bu, ticari-iqtisadi dövriyyələrin də həcminin artmasında mühüm rol oynayacaq.

### İnvestisiyaların həcmi 30 milyard dollara yüksəldiləcək

İki qardaş ölkə biznes icmaları arasında daha çox layihələrin icrasına və işgüzar münasibətlərin səmərəliliyinə xüsusi diqqət yetirərək qarşılıqlı sərmayələrin yatırılmasında bir sıra institusional və iqtisadi stimullardan, güzəşt alətlərindən də istifadə etməkdədir. Hazırda Türkiyənin Azərbaycana yatırdığı investisiyaların ümumi həcmi 12,5 milyard dollar, Azərbaycan şirkətlərinin Türkiyəyə yatırdığı investisiyaların həcmi isə 20 milyard dollara bərabərdir. Sərmayə qoyuluşlarının coğrafiyası çoxşaxəlidir və son illərdə bu tendensiya daha da artıb. Hazırda Türkiyədə 2 minə yaxın Azərbaycan şirkəti çalışır ki, onların bu ölkəyə yönəltdiyi investisiyalar tikinti, nəqliyyat, enerji, neft-kimya, sənaye və digər sahələri əhatə edir. Türkiyənin isə Azərbaycanda 4 mindən çox şirkəti fəaliyyət göstərir ki, onların ölkəmizin iqtisadiyyatına yatırdığı sərmayələr maliyyə, bank, sığorta, rabitə, nəqliyyat, infrastruktur, sənaye, enerji, ticarət, kənd təsərrüfatı, turizm, xidmət və digər sahələrdə cəmləşib.

Həmçinin 2024-cü ilin iyun ayında "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş" qüvvəyə minib və sənədə əsasən, iki qardaş ölkə arasında qarşılıqlı ticarətin və xarici investisiyaların həcminin artırılması, birgə iqtisadi layihələrin icrasında təşəbbüskarlığın daha da gücləndirilməsi nəzərdə tutulur. Saziş, həmçinin Türkiyə şirkətlərinin azad ərazilərdə investisiya güzəştlərindən və stimullaşdırıcı iqtisadi alətlərdən istifadəsinə də geniş zəmin yaradır. Bu baxımdam türk sərmayəçilərinin Qarabağ və Şərqi-Zəngəzurda investisiya qoyuluşlarına maraqları daha da böyüyür və investisiya gündəliyinin yeni ünvanı kimi azad əraziləri ön plana çəkir. Hədəf yaxın 5 ildə qarşılıqlı sərmayə qoyuluşlarının 2 dəfə artırılması, təkcə Türkiyə şirkətlərinin Azərbaycanda yatırdığı investisiyaların həcminin 25-30 milyard dollara çatdırılmasıdır.

### Naxçıvanın "yaşıl enerji"sinin Türkiyəyə ixracı

Azərbaycan və Türkiyə arasında iqtisadi əməkdaşlığın gündəliyində enerji sahəsi xüsusi yer tutur, iki ölkə enerjinin müasir şaxəsi olan "yaşıl enerji" üzrə birgə təşəbbüsləri daha da artırmağı hədəfləyir. Bərpaolunan enerji sahəsində əməkdaşlığın genişləndirilməsi, "yaşıl" investisiyaların artırılması və işbirliyi potensialının reallaşdırılması üçün Türkiyə biznes icmasının fəallığının yüksəldilməsi nəzərdə tutulur. Bu layihələrdə də Naxçıvan ön planda dayanır. Muxtar Respublikanın zəngin "yaşıl enerji" resurslarının Türkiyə vasitəsilə region ölkələrinə nəqli nəzərdə tutulur.

İki ölkə arasında enerji sahəsində əldə edilmiş razılaşmaya əsasən, Türkiyə Mərkəzi Asiya-Xəzər-Avropa "yaşıl enerji" kabelinə qoşulacaq və bölgədə yeni meqaenerji platforması təsis olunacaq.

*E.CƏFƏRLİ*

# İƏT-in fəal və məsuliyyətli üzvü...

## Azərbaycan Nablusda 600 nəfərlik məktəbin tikintisini öhdəsinə götürüb

Azərbaycan beynəlxalq təşkilatlar çərçivəsində fəal siyasət həyata keçirir. Bu baxımdan, Azərbaycan dövləti İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ilə geniş əlaqələrə malikdir. Beynəlxalq müstəvidə İslam həmrəyliyinə və sivilizasiyalararası dialoqun inkişafına mühüm töhfələr verən ölkəmiz bu nüfuzlu təşkilatın fəal üzvlərindən biridir.

İƏT nüfuzlu beynəlxalq qurum olaraq ötən illər ərzində hər zaman Ermənistanın işğalçılıq siyasətini pisləyib, Azərbaycanın ədalətli mövqeyinə dəstək nümayiş etdirib. Bu qurum, həmçinin Xocalı faciəsini soyqırımı kimi tanıyıb. Təqdirəlayiq haldır ki, 44 günlük Vətən müharibəsində də İƏT Azərbaycanın haqq işinə dəstək nümayiş etdirib. İƏT-in Baş Katibliyinin, İƏT-in Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı Təmas Qrupunun üzvlərinin və İslam Ölkələri Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İSESCO) nümayəndə heyətləri bir neçə dəfə ölkəmizin işğaldan azad edilmiş ərazilərinə səfər ediblər. Onların Ermənistan tərəfindən İslam irsinə qarşı törədilmiş vəhşiliklərin bilavasitə şahidi olmasının da böyük əhəmiyyəti var. Çünki Ermənistanın İslama qarşı tutduğu düşmənçilik mövqeyi bütün müsəlman ölkələrinin ictimaiyyətinə çatdırılır.




### Ceyhun Bayramov: Azərbaycan hər zaman Fələstin xalqına dəstək göstərməyə hazırdır

Qeyd edək ki, Azərbaycan İƏT-in tədbirlərində də fəal iştirak edir. Belə ki, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Səudiyyə Ərəbistanı Krallığına işgüzar səfəri çərçivəsində İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Xarici İşlər Nazirləri Şurasının fövqəladə sessiyasında iştirak və çıxış edib. C. Bayramov müqəddəs Ramazan ayı münasibətilə bütün İslam dünyasına ən xoş arzularını çatdırıb. Qəzza bölgəsi və Fələstindəki mövcud humanitar böhran, günahsız insanların kütləvi tələfatı, infrastrukturun məhvi, bölgədəki qida və su qıtlığının narahatlıq mənbəyi olaraq qaldığı, mülki şəxslərin ölümünə səbəb olan güc tətbiqinin qəbuledilməz olduğu və bu vəziyyətə son qoyulması üçün təcili və qətiyyətli addımların atılmasının vacibliyi qeyd edilib. Bu istiqamətdə, beynəlxalq hüququn suverenlik, ərazi bütövlüyü və güc tətbiqinin yolverilməzliyi prinsiplərinin üstün tutulmalı olduğu diqqətə çatdırılıb.

Nazir ölkəmizin yanvar ayında əldə olunmuş atəşkəsi müsbət qiymətləndirdiyi diqqətə çatdırıb, mövcud həssas vəziyyətdə atəşkəsin pozulması və eskalasiyaya gətirəcək addımlardan çəkinilməsinin vacibliyini vurğulayıb. Əldə olunmuş atəşkəsin beynəlxalq hüquqa, o cümlədən Fələstin xalqının legitim istəklərinə əsaslanan dayanıqlı sülh prosesinin başlanğıcı rolu oynamasının əhəmiyyəti qeyd edilib. Bu kontekstdə Azərbaycanın münaqişənin "iki dövlət" prinsipi əsasında, beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun həllini dəstəklədiyi bir daha diqqətə çatdırılıb.

C.Bayramov hazırkı dövrdə göstərilən sülh təşəbbüslərindən əlavə humanitar yardım səylərinin əhəmiyyəti də qeyd edib. Azərbaycanın İƏT-in məsuliyyətli üzvü kimi, həmçinin 2026-cı ildə İƏT-in sədri olaraq hər zaman qardaş Fələstin xalqına dəstək göstərməyə hazır olduğu diqqətə çatdırılıb. Bu istiqamətdə öncəki illərdən əlavə eskalasiyanın başladığı 2023-cü ildən etibarən Azərbaycanın Fələstin xalqının humanitar vəziyyətinin yüngülləşdirilməsi məqsədilə 2 milyon ABŞ dolları həcmində yardım göstərdiyi bildirilib. Ölkəmizin, həmçinin Fələstin xalqına təhsil və səhiyyə sahəsində dəstək üzrə təşəbbüs göstərdiyi, bu istiqamətdə 2024-2025-ci illər üzrə Fələstindən olan 15 tələbəyə "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı"nın ayrıldığı, həmçinin Azərbaycanın Nablusda 600 nəfərlik məktəbin tikintisini də öhdəsinə götürdüyü diqqətə çatdırılıb.




### Azərbaycan Misirin Qəzzanın bərpası ilə bağlı planını dəstəkləyir

Nazir çıxışı zamanı ölkəmizin Qəzzanın bərpası və yardım göstərilməsi üzrə Misir tərəfindən irəli sürülmüş və 4 mart tarixində Fövqəladə Ərəb Sammiti zamanı təsdiqlənmiş planı dəstəklədiyini vurğulayıb.

Xatırladaq ki, sammitdə 22 ərəb dövlətinin dövlət başçıları, yüksəksəviyyəli nümayəndələri, XİN başçıları, eləcə də BMT-nin və İƏT-in Baş katibləri, Avropa Şurasının və Afrika İttifaqının prezidentləri iştirak ediblər. Tədbirdə Qəzzanın bərpası ilə bağlı Misirin təklif etdiyi plan müzakirə olunub. Sammit Qahirə Bəyannaməsinin qəbulu ilə yekunlaşıb. Bəyannamədə regionda atəşkəsin əldə olunmasında, sülhün və sabitliyin bərpa edilməsində ABŞ-ın və qonşu dövlətlərin səyləri təqdir olunub, Fələstin hakimiyyətinin Qəzzanın idarəsi ilə bağlı təklifi qəbul edilib. Eləcə də bəyannamədə Fələstin və İsrail xalqlarının təhlükəsizliyini təmin edəcək beynəlxalq sülhməramlı qüvvələrin Qəzzaya və Qərb Sahilinə yerləşdirilməsinin əhəmiyyəti vurğulanıb. Bundan başqa, BMT ilə əməkdaşlıq şəraitində Qəzza ilə bağlı beynəlxalq fondun yaradılması təklifi müsbət dəyərləndirilib.

*Nardar BAYRAMLI*

# Ölkəmizdə siyasi dialoq mühiti dərinləşir

Ölkəmizdə siyasi dialoq mühitinin daha da dərinləşdirilməsi məqsədilə müxtəlif layihələr icra olunur. Azərbaycan ictimaiyyəti son illər ərzində iqtidarın mövcud istiqamətdəki davamlı təşəbbüslərinin şahididir. Siyasi dialoq ilə əlaqədar bütün təşəbbüslər mətbuatda işıqlandırılır və bu məlumatlar ictimaiyyət üçün tam olaraq açıqdır.

Qeyd edək ki, siyasi dialoq mühitinin təşviqi ilə bağlı təşəbbüslər institusional və qanunverici müstəvilərdə olmaqla yanaşı, ölkəmizdə yeni siyasi mədəniyyətin formalaşdırılması kimi mühüm sahəni də əhatə edir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev çıxış və müsahibələrində siyasətdə sağlam münasibətlərin bərqərar olunması, siyasi dialoq mühitinin əhəmiyyəti və konstruktiv əməkdaşlığın vacibliyi kimi önəmli demokratik məzmunlu təzahürləri davamlı olaraq qeyd edir. Ölkəmizdə fəaliyyət göstərən siyasi partiya nümayəndələrinin, tanınmış politoloq və siyasi şərhçilərin, habelə internet televiziya kanalları rəhbərlərinin, qəzet redaktorlarının və digər jurnalistlərin martın 6-da Xankəndi, Əsgəran və Xocalıya növbəti birgə səfərinin təşkil olunması da ölkəmizdə dialoq mühitinin nümunəsidir.

## Arzuxan Əlizadə: Siyasi islahatlar sağlam dialoqa xidmət edir



Məsələ ilə bağlı qəzetimizə açıqlama verən Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) sədri, millət vəkili Arzuxan Əlizadə bildirib ki, ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların mütləq əksəriyyətinin yeganə amalı inkişaf siyasətinə dəstək vermək və bu prosesdə fəal iştirak etməkdir. Onun sözlərinə görə, Azərbaycan Prezidentinin iradəsi əsasında milli həmrəyliyə və sağlam dialoqa xidmət edən siyasi islahatlar mühüm yeniliklərə yol açıb: "Dialoqun inkişafı əksər siyasi partiyaların həm iqtidarla, həm də öz aralarında sağlam münasibətlər formalaşdırıb. Ümummilli məsələlərdə də vahid mövqe yaranıb. Fikrimcə, ölkəmizdə postmüharibə dövründə dialoqun daha da gücləndirilməsi olduqca vacibdir. Bu mənada, işğaldan azad olunmuş ərazilərimizə təşkil olunan səfərlər çox əhəmiyyətlidir".

A.Əlizadə qeyd edib ki, hazırda işğaldan azad edilmiş ərazilərimizdə, o cümlədən Xankəndi, Xocalı və Əsgəranda böyük quruculuq işləri həyata keçirilir. "Siyasi partiyalar olaraq bu prosesdə dövlətimizə siyasi dəstək verməliyik. Ölkəmizdə ümummilli məsələlərdə həmrəylik və birliyimizi hər zaman qorumalıyıq", deyə partiya sədri vurğulayıb.

## Fazil Mustafa: Belə səfərlər partiyalararası dialoqun inkişafına kömək edir

Böyük Quruluş Partiyasının (BQP) sədri, parlamentin komitə sədri Fazil Mustafa bildirib ki, Prezident Administrasiyasının işğaldan azad edilmiş ərazilərimizə təşkil etdiyi səfərlər çox yüksək səviyyədədir. Onun sözlərinə görə, bu əraziləri görmək, işğaldan azad olunmuş torpaqlarımızı bir daha ziyarət etmək bir xoşbəxtlikdir: "İndi bu torpaqlarda Azərbaycan bayrağı dalğalanır, hər yerdə quruculuq işləri gedir. Bu, bütün Azərbaycan üçün böyük fəxarətdir. Biz də siyasi partiyalar olaraq burada olan mənzərəni müşahidə etdikcə, özümüzün düşüncəmizi, dünyagörüşümüzü daha fərqli formada inkişaf etdiririk və bura ilə bağlı təəssüratlarımızı formalaşdırırıq".

Partiya sədri qeyd edib ki, belə səfərlər, həm də partiyalararası dialoqun inkişafına kömək edir, partiya təmsil-



çiləri, media nümayəndələrinin bir yerdə gələcək barədə düşünməsi fürsəti yaradır: "Ona görə də çox faydalı bir tədbirdir və biz bundan ancaq bəhrələndik. Qarabağa növbəti səfərlə bağlı təəssüratlarımız çox böyükdür".



## Elşən Musayev: Ümummilli məsələlər bizdən hər zaman birlik və həmrəylik tələb edir



"Prezident Administrasiyasının təşkilatçılığı ilə biz növbəti səfərimizdə Qarabağda baş verən quruculuq işləri ilə tanış olmaq, həm də bu ərazilərdə görülən işlərin, proseslərin şahidi olmaq, əhalinin məskunlaşması ilə bağlı bilgilər əldə etmək fürsəti qazandıq. Çox sevindik. Çünki, illər öncə bunu arzulayırdıq. Amma zaman göstərdi ki, biz gəldik və bayrağımızı burada dalğalandırdıq". Bu fikirləri isə Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri (ADMP), millət vəkili Elşən Musayev deyib. E.Musayev bildirib ki, artıq Qarabağ Universiteti fəaliyyət göstərir, Qarabağ stadionu qarşımıza panorama olaraq açılır, binalar tikilir, insanlar köçməyə başlayırlar və biz Qarabağın artıq həqiqətən də tam mənada Azərbaycanı bütövləşdirdiyinin şahidi oluruq.

"Ona görə də bu səfərin təşkilatçılarına təşəkkür edirik. Belə gözəl səfərlər, həm də partiyalararası dialoqun inkişafına da fayda verir. Çünki bütün bunlar ümummilli məsələlərdir ki, bizdən hər zaman birlik və həmrəylik tələb edir",-deyə partiya sədri vurğulayıb.

*Nardar BAYRAMLI*

# İtkin düşmüş şəxslərlə bağlı

## Beynəlxalq səylərin səfərbər edilməsi vacibdir



Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov martın 10-da İtkin Düşmüş Şəxslər üzrə Beynəlxalq Komissiyanın Baş direktoru Katrin Bomberger ilə görüşüb.

Nazirliyin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, görüşdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və ərazilərimizin işğalı zamanı itkin düşmüş azərbaycanlılar məsələsi, itkin düşmüş şəxslərin tapılması və kimliklərinin müəyyənləşdirilməsi istiqamətində mövcud vəziyyət, habelə beynəlxalq əməkdaşlıq istiqamətində səylər müzakirə olunub.

Nazir Ceyhun Bayramov "itkin düşmüş şəxslər" məsələsinin hər zaman əsas diqqət mərkəzində olduğu, 1990-cı illərin əvvəllərində Ermənistanın hərbi təcavüzü nəticəsində mülki şəxslər, uşaqlar və qadınlar da daxil olmaqla, 4000-ə yaxın azərbaycanlının itkin düşdüyünü diqqətə çatdırıb.

2023-cü ildən etibarən ölkəmizin bu məsələ ilə bağlı məlumatlılığın artırılması üçün beynəlxalq konfranslar təşkil etdiyi, Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının bu işdə fəal rol oynadığı qeyd olunub.

İtkin düşmüş şəxslər məsələsinin həllini tapması istiqamətində beynəlxalq səylərin səfərbər edilməsinin vacibliyi vurğulanıb.

Nazir itkin düşən şəxslərin taleyinə aydınlıq gətirilməsinin həm qanunun aliliyi, ədalət, həm də münaqişə sonrası münasibətlərin normallaşmaşı baxımından önəmini nəzərə alaraq, beynəlxalq ictimaiyyətin bu məsələdə rolunun vacib xarakter daşıdığını vurğulayıb. Ölkəmizin işğaldan azad olunmuş ərazilərdə indiyədək 23 kütləvi məzarlıq aşkarladığı qeyd edilib. Bununla yanaşı, itkin düşmüş şəxslərin yerinin müəyyən edilməsi prosesinə mina təhdidinin ciddi şəkildə manə törətdiyi bildirilib.

Söhbət zamanı tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Fransanın əsassız iddiaları...

## Azərbaycan qətiyyətlə rədd edir



Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Fransanın dənizaşırı ərazilər naziri Manuel Valsın "BFMTV"-yə müsahibəsi zamanı ölkəmiz əleyinə səsləndirdiyi əsassız iddialara dair yerli medianın sualını cavablandırıb.

Jurnalistlərin "Fransanın dənizaşırı ərazilər naziri Manuel Valls "BFMTV"-yə müsahibəsi zamanı növbəti dəfə Azərbaycanı Fransaya qarşı guya hibrid müharibə aparmaqda, habelə dənizaşırı ərazilərdə müstəqillik tərəfdarlarını dəstəkləməklə Fransaya xarici müdaxilədə günahlandırıb. Məsələ ilə bağlı Xarici İşlər Nazirliyinin rəsmi mövqeyi nədən ibarətdir?" sualına mətbuat katibi belə cavab verib: "Fransa tərəfinin dənizaşırı ərazilərdəki uğursuz siyasətini, kolonializm keçmişini davam etdirmək səylərini ört-basdır etmək üçün ölkəmizi ittiham edərək, təkrar-təkrar səsləndirdiyi əsassız iddiaları qətiyyətlə rədd edirik.

Fransanın kolonial siyasətini təbliğ edən və bu ölkənin "3 okean və 5 qitədə" mövcud olduğunu iddia edən Manuel Vallsın Azərbaycana qarşı növbəti dəfə səsləndirdiyi cəfəng iddialar, Fransanın həmin xalqlar arasında dayaqlarını itirməsi ilə barışmadığının növbəti təzahüründən başqa bir şey deyil.

Ölkəsini "nadir güc" kimi qələmə verən nazir Manuel Valls səsləndirdiyi ziddiyyətli fikirlərin Fransanın dənizaşırı ərazilərində baş verən zorakılıq aktları, müstəqillik tələb edən xalqların hərəkatlarının boğulması faktları qarşısında nə qədər zəif arqumentlər olduğunu özü də etiraf edir.

Nazir Manuel Vallsın fikirləri, Fransanın öz "strateji maraqları" müzakirə mövzusu olduqda fikir azadlığı, müstəqillik kimi anlayışları da qurban verməyə hazır olduğunu nümayiş etdirməsi, əslində, bu ölkənin ikili standartlar yanaşmasından xəbər verir.

Fransa tərəfindən bu kimi iddialar səsləndirməklə ölkəmizə qarşı apardığı əsassız qarayaxma kampaniyasını dayandırmağı tələb edirik.

# Ermənistan revanşizm və sürətli silahlanma yolunda

Son vaxtlarda Ermənistanla Hindistan arasında hərbi sahədə əməkdaşlıq daha da intensivləşib. Bu günlərdə Ermənistanın Hindistandakı səfiri Vaaqn Afyan Müdafiə Nazirliyində Hindistan Müdafiə Nazirliyinin beynəlxalq əməkdaşlıq üzrə birgə katibi Vişveş Neqi ilə görüşüb. V.Neqi Ermənistanın Hindistandakı hərbi attaşesi polkovnik Arkadi Tonoyanın mühüm missiyasını alqışlayıb. Bu barədə Ermənistanın Hindistandakı səfirliyi məlumat yayıb. Bildirilib ki, tərəfər iki ölkənin müdafiə nazirlərinin görüşündən sonra əldə olunmuş razılaşmaların həyata keçirilməsi, qarşılıqlı səfərlərin təşkili, müdafiə sahəsində məsləhətləşmələrin davamlılığının təmin edilməsi, qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi məsələlərini müzakirə ediblər.

Eyni zamanda, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın Hindistana səfəri çərçivəsində bu ölkənin xarici işlər naziri Subrahmanyam Caişankar və digər rəsmi şəxslər arasında görüşləri baş tutub. Bu görüşlərdə də əsas müzakirə mövzularından biri müdafiə sahəsində əməkdaşlıq olub.

Göründüyü kimi, iki ölkənin rəsmiləri davamlı olaraq bir araya gələrək qeyd olunan istiqamətdə əməkdaşlığın daha geniş imkanlarını axtarırlar ki, bu da suallar yaratmaya bilməz. Sözdə sülhyaratma prosesinə sadiqlikdən danışan Ermənistan rəsmilərinin reallıqda buna zidd olan mövqe sərgiləmələri, o cümlədən Hindistanla hərbi sahədə əməkdaşlığı gücləndirməklə bağlı müzakirələr aparmaları hansı məqsədə xidmət edir?

## Ermənistan yeni müharibəyə təhrik edilir

Bu gün məğlub Ermənistana revanşizm əhval-ruhiyyəsi hakim kəsilib, desək, əsl həqiqəti ifadə etmiş olarıq. Revanşistər həm iqtidar komandasında, həm də müxalifət düşərgəsində yer alırlar. Eyni zamanda, onlar bəzi xarici qüvvələr tərəfindən dəstəklənirlər. Cənubi Qafqaz coğrafiyasında siyasi və iqtisadi məqsədlər güdən Fransa kimi ölkələr özlərinin regional maraqlarına Ermənistan üzərindən nail olmağa çalışırlar və bu məqsədlə rəsmi İrəvanı yeni müharibəyə təhrik edirlər.

Ermənistanın yeni müharibəyə təhrik edilməsində Fransa xüsusi canfəşanlığı ilə fərqlənir. Prezident Makron Ermənistanı hər zaman dəstəkləyəcəyini bildirib. Yelisey Sarayı rəsmi İrəvanı dəstəkləməklə bağlı yalnız siyasi bəyanatlar vermir, həm də bu ölkəyə öldürücü silahlar tədarük edir. Xatırladaq ki, Fransadan Silahlar üzrə Baş Direktorluğun (Direction generale de l’armement, DGA) nümayəndə heyəti İrəvana səfər edib. Artıq ikitərəfli silahlanma komitəsinin işi bərpa olunub. Ona Fransa silahlarının Ermənistana tədarükü üçün “strateji planlaşdırma”nı təmin etmək tapşırılıb. İrəvandakı səfirliyində hərbi attaşe vəzifəsi təsis etməsi Yelisey Sarayının niyyətini bir daha ortaya qoyur. Parisin Ermənistana ölümcül silahların tədarükü barədə hərbi-siyasi qərarına əsas dəstəyi şəxsən Makron göstərib.

İndiyədək Fransadan Ermənistana tədarük olunan silah partiyasına gecəgörmə cihazları, GM200 radar stansiyaları daxildir. İki ölkə arasında imzalanan hərbi əməkdaşlıq sazişi həm də Fransanın “Thales” müdafiə qrupundan üç “Ground Master 200” (GM200) radar sisteminin Ermənistana tədarükünü nəzərdə tutur. Bu radar sistemi PUA, helikopter, qanadlı raketlər kimi təhlükələri aşkar etmək və izləmək qabiliyyətinə malikdir. “Ground Master 200” müasir radar sistemi 250 km uzaqlığında hava hədəflərini aşkar etmək imkanına malikdir. Görünən odur ki, Ermənistan silahlı qüvvələri hava hücumundan müdafiə qoşunlarının itirilmiş döyüş qabiliyyətini bərpa etmək istəyir. Bəs Ermənistanın bu silahları almaq üçün vəsaiti varmı? Bəzi fikirlərə görə, ona silahlar pulsuz verilir. Fransanın “Le Monde” qəzeti də bir müddət əvvəl bu məsələyə toxunub. Materialda bildirilib ki, ermənilərə radar və zenit-raket komplekslərinin satışı ilə yanaşı, birgə təlimlərin keçirilməsi də daxildir. Lakin Ermənistanın bu xərcləri necə ödəyəcəyinin sual altında olduğu qeyd edilib. Fransadan Ermənistana həmçinin “Bastion” tipli zirehli texnikalar da daşınıb. Qeyd edək ki, “Acmat” şirkətinin “Bastion” zirehli döyüş maşınları Afrika və Yaxın Şərq iqliminə uyğundur. İndiyə qədər bu avtomobilləri Benin, Somali, Qabon, Kamerun, Mali, Burkino-Faso və digər Afrika ölkələri alıblar.



Son vaxtlarda Ermənistanın silahlanmasında ABŞ-ın keçmiş administarsiyası da fəal iştirak edib. Ötən il mətbuatda ABŞ Silahlı Qüvvələrinə məxsus “Boeing C-17” hərbi yük təyyarəsi ilə Ermənistan Silahlı Qüvvələri üçün yeni nəsil silahlar - snayper tüfəngləri, gecəgörmə cihazları, xüsusi rabitə vasitələri, zirehli texnika gətirildiyinə dair məlumatlar yayıldı. Verilən məlumatlarda xüsusi olaraq vurğulanır ki, ABŞ Ermənistanı silahlandırmaqla yanaşı, həm də onun ərazisindən istifadə etməklə İranla bağlı kəşfiyyat işləri aparır. Eyni zamanda, Bayden administarsiyası dönəmində Ermənistan Müdafiə Nazirliyində ABŞ-dan olan hərbiçi rəsmi ştatda işə götürülüb və iki ölkənin hərbiçiləri birgə təlimlərə cəlb olunublar.



## Hindistandan alınan silahlar

Yeni müharibəyə təhrik edilən Ermənistanın sılahlandırılması daha çox dərəcədə Hindistan üzərindən həyata keçirilir. Müstəqil araşdırmaçılar müəyyənləşdiriblər ki, Dehlinin İrəvana tədarük etdiyi silahların bir qismi Fransa istehsalıdır. Yelisey Sarayı iz azdırmaq məqsədilə öz silahlarını Hindistan vasitəsilə Ermənistana göndərir.



Siyahıda həmçinin Hindistanın öz istehsalı olan silahlar da var. Hindistandan Ermənistana silah tədarükünə dair təxminən 2 milyard dollarlıq ilk böyük müqavilə 2020-ci ildə imzalanıb. Ermənistan mətbuatı Hindistanda dərc olunan “The Economic Times” nəşrinə istinadən iki ölkə arasında 2022-ci il sentyabrın əvvəlində imzalanan dövlətlərarası müqavilənin bəzi detallarını açıqlayıb. Sənədin şərtlərinə əsasən, Hindistan Ermənistana təxminən 250 milyon dollarlıq silah tədarük edəcək. Söhbət əsasən “Pinaka” raket sistemlərinin və onların sursatlarının, eləcə də tank əleyhinə digər silahların satışından gedir. Bu silahlar Hindistanın yerli istehsalıdır. Onlardan daxili silahlanmada istifadə olunur.

Ermənistana silah tədarükü barədə Hindistan mətbuatında da materiallar dərc olunub. Hindistan mətbuatının yazdığına görə, yaxın üç ildə Ermənistana dəyəri təxminən 150 milyon ABŞ dolları olan “ATAGS” haubitsaları da tədarük ediləcək. Ermənilərin şəninə təriflər yağdırdıqları 155 mm-lik bu topların atış məsafəsinin 48 kilometrə qədər olduğu, dağ döyüş əməliyyatları şəraitində sınaqdan keçirildiyi və hazırda Hindistan ordusunun arsenalına 150 ədəd “ATAGS”ın daxil edildiyi bildirilir. Ermənistanın bu haubitsalardan 70-100 ədəd ala biləcəyi proqnozlaşdırılır. İrəvan həmçinin 18 ədəd “Pinaka” reaktiv yaylım atəş sistemi (atış məsafəsi 70 km), çoxlu sayda tank əleyhinə sistemlər və s. almağı da planlaşdırır. Bu isə bütün müqavilələrin ümumi dəyərinin 500 milyon dollara qədər artırılması deməkdir.

Ermənistana 2021-ci ildən etibarən raket kompleksləri, hava hücumundan müdafiə sistemi və pilotsuz uçuş apartaları satan Hindistan indi isə bu ölkəyə snayper tüfəngləri satmağı planlaşdırır. Artıq Hindistanın “SSS Defence” şirkəti özünün istehsal etdiyi snayper tüfənginin Ermənistana satışı ilə bağlı müqavilə imzalayıb. Bu barədə “Indian Defence” məlumat yayıb. Bildirilir ki, rəsmi Dehli ilk dəfədir tamamilə Hindistanda dizayn edilmiş və istehsal edilmiş snayper tüfənglərini xarici ölkəyə ixrac edir.

## Türkiyə mətbuatının izinə düşdüyü faktlar

Ermənistan nisbətən ucuz silah və sursat idxalını həyata keçirmək məqsədilə Hindistanla müdafiə dialoqunu genişləndirir. Bu barədə Türkiyənin “Star” qəzeti yazıb. Nəşr qeyd edir ki, Ermənistan Azərbaycanla 44 günlük müharibə nəticəsində itirdiyi hərbi-texniki potensialı bərpa etmək cəhdi ilə son illər Fransa və Hindistandan silah almağa başlayıb. Sitat: “Bu dialoqun son həlqəsi cari il fevralın 10-14-də “Aero India 2025” beynəlxalq aerokosmik sərgisini ziyarət edən Ermənistanın müdafiə naziri Suren Papikyanın başçılıq etdiyi yüksəksəviyyəli nümayəndə heyətinin Hindistana səfəri olub”. Tərəflərin müəyyən növ məhsulların birgə istehsalının yaradılmasını istisna etməyən ekspert rəylərinə əsaslanan qəzet yazır: “Aviasalon çərçivəsində Ermənistan və Hindistanın müdafiə nazirliklərinin rəhbərləri ilə müdafiə şirkətlərinin nümayəndələri arasında danışıqlar aparılıb”.

“Ermənistan 2024-2025-ci illər üçün Hindistandan daha 600 milyon dollar məbləğində silah almağı öhdəsinə götürüb. İrəvan artilleriya sistemlərinə və hava hücumundan müdafiəyə üstünlük verir”, - deyə məqalədə bildirilir.

Digər məsələlərlə yanaşı, qəzet Hindistanın “Zen Anti-Drone System” (ZADS) şirkəti tərəfindən hazırlanmış pilotsuz uçuş aparatları əleyhinə sistemlərin Ermənistana tədarükü üçün 41 milyon dollarlıq sifariş barədə məlumatlara da istinad edir.

Bundan başqa, İrəvanda Hindistanın “Hindustan Aeronautics Limited” şirkəti vasitəsilə dörd “Su-30 SM” təyyarəsinin təkmilləşdirilməsi məsələsi də müzakirə olunur. “Star” yazır ki, bu məsələ ilə bağlı danışıqların birinci mərhələsi ötən ilin sonunda baş tutub. “Nəticədə Hindistan Ermənistana əsas silah tədarükçüləri siyahısında Rusiyanı əvəz etməyə başlayıb və İrəvan bu Cənubi Asiya ölkəsindən silah idxal edənlər arasında lider mövqe tutur, - deyə nəşr vurğulayıb.

Bəhs olunan faktlar rəsmi İrəvanın sülh ritorikasının başdan-ayağa blef olduğunu əyani şəkildə təsdiqləyir. Görünür, Ermənistan dövləti və cəmiyyəti 44 günlük müharibənin dərslərindən lazımi nəticələri çıxarmayıb. Şübhə yoxdur ki, Ermənistan yeni müharibə avantürasına başlayacağı təqdirdə bunun fəsadları məğlub ölkə üçün daha sarsıdıcı olacaq.

*Mübariz FEYİZLİ*

# Bu dəfə Ciddədə ...

## ABŞ Ukrayna ilə də Səudiyyə Ərəbistanında görüşür
## Kiyev Vaşinqtonu inandırmağa çalışır

**Son illər qlobal miqyasda proseslərə ən mühüm təsiredici amil kimi qeyd olunan Ukrayna-Rusiya müharibəsinin yekunlaşdırılması istiqamətində işlər aktiv şəkildə davam etdirilir. Xüsusilə, Trampın hakimiyyətə gəlişi ilə ABŞ münaqişənin dayandırılması istiqamətində səylərini gücləndirib. Bu və ya digər şəkildə hərbi əməliyyatların dayandırılması üçün müzakirələr təşkil edən ABŞ artıq Rusiya tərəfi ilə iki dəfə masa arxasına oturub. Geniş ictimaiyyətə açıqlanmasa da Ər - Riyadda və İstanbulda baş tutan görüşlərdə münaqişənin dayandırılması mexanizmləri müzakirə edilib.**



## Ciddə masası...

Bu dəfə “növbə” Ukraynaya çatıb. Belə ki, bu gün Səudiyyə Ərəbistanının Ciddə şəhərində ABŞ ilə Ukrayna arasında danışıqlar prosesinin birinci raunduna start verilir. Qeyd edək ki, danışıqlarda rəsmi Kiyevi Ukrayna liderinin ofisinin rəhbəri Andrey Yermak, xarici işlər naziri Andrey Sibiqa və müdafiə naziri Rüstəm Umerov da təmsil edəcək. Vaşinqtonu isə görüşdə Dövlət katibi Marko Rubio, milli təhlükəsizlik müşaviri Mayk Vals və Trampın Yaxın Şərq məsələləri üzrə nümayəndəsi Stiv Vitkoff təmsil edir.

“The Economist”in yazdığına görə, Ukrayna prezidenti Zelenski krallığa səfər çərçivəsində Ər-Riyada gəlib. Martın 11-də baş tutacaq görüşü Kiyev tərəfi “təsadüfi” adlandırsa da, siyasi politoloqlar bunu heç də belə qiymətləndimir. Belə ki, ötən həftə “Axios” Ukrayna rəsmisinə istinadən Zelenskinin martın 10-da Səudiyyə Ərəbistanına səfər edəcəyini və vəliəhd şahzadə Məhəmməd bin Salmanla görüşəcəyini yazmışdı.

Görüşün mahiyyətinə gəldikdə isə burada sülh ilə yanaşı ABŞ-ın Ukraynaya yenidən aktiv yardım etməsi məsələsinin də qoyulacağı bildirilir. Belə ki, “The Financial Times” yazır ki, Kiyev ABŞ-ı hərbi yardım və kəşfiyyat məlumatlarının mübadiləsini bərpa etməyə inandırmağa çalışır. Bunun üçün isə Ciddədə “qismən barışıq” təklif edilməsi planlaşdırılır. ABŞ nümayəndə heyəti isə rəsmi Kiyevin müharibəni dayandırmaq üçün Rusiyaya müəyyən güzəştlərə getməyə hazır olması ilə bağlı mövqeyini qiymətləndirmək niyyətindədir. “Reuters”in iki amerikalı rəsmiyə istinadən verdiyi məlumata görə, Vaşinqton nümayəndə heyəti rəsmi Kiyevin müharibəni dayandırmaq üçün Rusiyaya “maddi güzəştlərə” hazır olub-olmadığını müəyyən etməyə çalışır. Bundan əlavə, “Reuters” yazır ki, ABŞ rəsmiləri fevralın 28-də Oval kabinetdə hər iki ölkə liderləri arasında emosional söhbətdən sonra “ukraynalıların Tramp administrasiyası ilə əlaqələri yaxşılaşdırmaqda ciddi olduqlarının əlamətlərini” izləyəcəklər. Bu barədə adının çəkilməsini istəməyən məmurlardan biri qərbli jurnalistlərə bildirib.



## “Qismən barışıq” təklifi...

Prezident Trampın xüsusi elçisi Vitkoff isə Ukrayna ilə müharibəyə son qoymaq üçün çərçivə sazişi üzərində danışıqlar aparıldığını önə çəkib. Ukrayna məsələsinin nizamlanması ilə bağlı məsul şəxslərdən sayılan ABŞ-ın Ukrayna və Rusiya üzrə xüsusi elçisi Keyt Kelloq isə deyib ki, Vaşinqton hazırda Zelenskinin əlavə addım atmasını gözləyir.

## Daha çox təzyiq yaradacaq...

Qərb mətbuatı bu görüşdən gözləntilərlə yanaşı, nəticələri də təhlil edir. Belə ki, danışıqların daha bir neçə raund uzanma ehtimalını və ya elə ilk mərhələdəcə nəticəyə yol açacağını indidən söyləmək çətindir. Hər bir halda, bu danışıqlar hərbi əməliyyatların danışıqlar masasına transferini gerçəkləşdirə bilər. “The Economist” yazır ki, Səudiyyə Ərəbistanındakı danışıqlar uğursuz olacağı təqdirdə, bunun Ukraynaya təsiri böyük olacaq - Kiyevin isə başqa şansı olmayacaq.

Nəşr qeyd edir ki, danışıqların uğursuzluğu Vaşinqtonun daha çox təzyiqinə səbəb ola bilər - bununla bağlı açıqlama verən ukraynalı rəsmilər isə Zelenskinin ərazi güzəştləri müqabilində atəşkəs sazişinin bağlanmasını istisna edib.

Qeyd edək ki, görüşdən öncə Vaşinqtondan yayılan məlumatlarda bildirilib ki, məqsəd sülh sazişi və ilkin atəşkəs üçün zəmin yaratmaqdır. Bununla belə, Ukrayna tərəfi görüşün şantaj, ləngimə taktikası və ya ABŞ prezidenti Donald Trampın Rusiyanın xeyrinə olan güzəştlər əldə etmək cəhdi ilə yekunlaşa biləcəyindən ehtiyat edir. Ən vacib məsələ isə Ciddədə sövdələşmənin bağlanması üçün Ukraynanın ilk növbədə Trampla barışmalı olmasıdır.

## Zelenski minerallarla bağlı güzəştə razıdır...

“Financial Times” yazır ki, Zelenski məhbusların azad edilməsini, raketlərin, dronların və infrastruktur obyektlərinə zərbələrin istifadəsinə qadağa qoyulmasını, habelə Moskvanın bunu edəcəyi təqdirdə nizamlanmanın ilk mərhələsi kimi “dənizdə barışıq” təklif edib. Bu, qismən Aİ-nin “atəşkəs planı” ilə üst-üstə düşür. Bu isə ABŞ-ı “qıcıqlandırır”. Düzdür, Tramp üçün əsas olan amil əldə edəcəyi iqtisadi üstünlüklərdirsə belə, prosesə Aİ tərəfindən müdaxilə Ağ Ev sahibinin ürəyincə deyil.

Bunu anlayan Ukrayna isə ABŞ-ı yumşaltmaq üçün digər vasitələrə əl atır. Məsələn, Zelenski bildirib ki, Ukrayna resursları ilə bağlı istənilən vaxt və istənilən əlverişli formatda saziş imzalamağa hazırdır. Bu isə Ukraynanın bugünkü görüşdə ABŞ-ın dəstəyini qazanmasına hesablanıb.

*P.İSMAYILOV*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi” istiqaməti üzrə hazırlanmışdır

# Fikirdə, əməldə birlik!

## Diaspor fəaliyyətimiz uğurla davam edir...

Hər bir ölkənin tarixinin, milli adət-ənənələrinin, mədəniyyətinin xaricdə tanıdılmasında diaspor fəaliyyətinin böyük rolu var. Hazırda lobbiçilik və diaspor dünyada beynəlxalq münasibətlərin vacib elementi sayılır. Hələ ötən əsrdən etibarən, ciddi təşkilatlanma mərhələsindən keçən Azərbaycan diasporu ölkəmizi xaricdə layiqincə təmsil edir. Bu çərçivədə xaricdəki soydaşlarımızın Azərbaycanın milli dövlət maraqlarının müdafiəsində bir çox lobbi qrupları ilə qarşılıqlı əməkdaşlıq şəraitində fəaliyyət göstərdiyini xüsusi vurğulaya bilərik. Lakin qlobal miqyasda ciddi proseslərin cərəyan etdiyini nəzərə alsaq, Azərbaycan diasporunun da öz işini günün tələblərinə uyğun qurmağının vacibliyi ön plana çıxır.

İqtisadi inkişaf, güclü dövlət quruculuğu, maddi imkanlar, hərbi və milli birlik ölkəmizə tarixi qələbə qazandırdı. Bütün bu amillər ermənilərə layiqli cavab verməyimiz üçün əsaslı rol oynadı, amma həmin qələbəmizin əldə edilməsində həmrəyliyimizin, birliyimizin, diasporlarımızın fəaliyyətinin də rolu danılmazdır.

**Məhz diasporlarımızın fəaliyyəti sayəsində...**

Mövzunu “Yeni Azərbaycan”a dəyərləndirən “Diaspor Press” informasiya mərkəzinin rəhbəri Toğrul Allahverdi bildirib ki, 44 günlük müharibə dövründə bütün dünya ictimaiyyəti xalqımızın həmrəyliyinin, birliyinin şahidi oldu: “Bütün dünya gördü ki, Azərbaycan xalqı öz milli dəyərlərinin, özünəməxsus olanın müdafiəsi uğrunda necə birləşdi və ən qısa zamanda qələbə qazandı. Milli birliyimiz, həmrəyliyimiz bizə Zəfər qazandırdı. Həmin dövrdə hətta ölkə hüdudlarından kənarda, xarici ölkələrdə yaşayan həmvətənlərimiz də həmrəylik, birlik nümayiş etdirdi. Diasporlarımız xarici ölkədə yaşayan ermənilərin ölkəmizin haqq işinə qarşı bir sıra həmlələrinin, bəd niyyətlərinin və əməllərinin qarşısını aldı. Dəfələrlə bir neçə xarici ölkə səfirlikləri qarşısında ölkəmizin haqq işinə kölgə salmaq, müxtəlif don geyindirmək istəyən ermənilər diasporlarımızın ciddi müqaviməti ilə qarşılaşmalı oldular və öz çirkin niyyətlərini həyata keçirə bilmədilər. Məhz diasporlarımızın fəaliyyəti sayəsində ölkəmiz əleyhinə yalan, təhrif olunmuş məlumatları yayan ermənilərin təbliğat maşınının fəaliyyəti məhdudlaşdırıldı, hətta ifşa edildi və onlar istədiklərinə nail ola bilmədilər. Azərbaycan həqiqətlərinin, bizim doğru işimizin bütün dünyaya çatdırılmasında, ərazilərimizin erməni separatçıları tərəfindən işğal edilməsi barədə məlumatlandırılmasında diasporlarımızın və lobbilərimizin xüsusi rolu oldu. Ölkəmizin haqlı mövqeyi, milli maraqları dünya miqyasında müdafiə edildi. Bir sözlə, diasporlarımız da qələbəmizə öz töhfəsini vermiş oldu. Bütün bunlar onu göstərir ki, diaspor və lobbiçilik nə qədər vacib məqamdır. Xatırladaq ki, Ulu öndər Heydər Əliyev hakimiyyətə yenicə qayıtdığı dövrdə məhz xarici ölkələrə səfərləri zamanı həmvətənlərimizlə görüşlər təşkil edərək, onların birləşməsini, birliyini tövsiyyə edirdi. Dahi rəhbərin tövsiyələrindən doğru, düzgün



nəticələr hasil edən həmvətənlərimizin birliyi ilə diasporlarımız formalaşdı. Bu isə o deməkdir ki, diaspor quruculuğumuz da məhz Ümummilli Liderin adı ilə bağlıdır. Ulu Öndərin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev də diaspor quruculuğuna, lobbiçiliyin inkişafına xüsusi diqqətlə yanaşır. Diqqətə çatdıraq ki, Ermənistanın hər hansı maddi problemləri ortaya çıxdığı zaman erməni diasporu həmin ölkəyə maddi yardımlar etdiyi halda, Azərbaycan dövləti xarici ölkələrdə mövcud olan diasporlarımızı özü maliyyələşdirir. Hansı ki bu məqam özü də ölkə rəhbərimizin diasporlarımıza diqqətinin, qayğısının bariz nümunəsidir”.

**Birliyimiz və həmrəyliyimiz əvəzsizdir**

T.Allahverdili bildirib ki, İkinci Qarabağ müharibəsində Zəfər qazandıq, amma ermənilər hələ də öz çirkin niyyətlərindən əl çəkən kimi görünmürlər: “Savaş meydanında müharibə başa çatsa da, informasiya müharibəsi hələ davam edir. Bu baxımdan da həmrəyliyimiz, birliyimiz, diasporlarımızın fəaliyyətinin genişləndirilməsi öz aktuallığını qorumaqdadır, çünki düşmənə təkcə hərb meydanında deyil, istənilən müstəvidə qalib qəlmək üçün buna indi daha çox ehtiyac duyulur. Təsadüfi deyil ki, ölkə rəhbərimiz birliyimizə, həmrəyliyimizə xüsusi önəm verir, diasporlarımızın fəaliyyətini də yüksək qiymətləndirir. Qloballaşan dünyada birliyimiz, həmrəyliyimiz əvəzsizdir və xalqlar arasında sürətli inteqrasiya prosesi getdiyi bir zamanda diaspor təşkilatlarının beynəlxalq siyasətdə rolunun da artması həqiqətə çevrilib. Bu gün dünyanın reallıqları diaspor quruculuğu istiqamətində qarşıya yeni vəzifələr qoymaqdadır. Diaspor təşkilatlarının fəaliyyəti tarixi zərurətə çevrilib”.

***Səlim***

# Türk dövlətlərinin yeni hədəfləri

## TDT ölkələri iqtisadi-ticari imkanları bir neçə dəfə artırmaq niyyətindədir

**2024-cü ildə Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin qarşılıqlı ticarət dövriyyəsi əhəmiyyətli həcmlərdə artaraq 58,17 milyard dollara çatıb. Qlobal xarici ticarət portfelində ümumi ticarət dövriyyəsi 850 milyard dollar təşkil edən türk dövlətlərinin qarşılıqlı mal mübadiləsinin payı 3 faizdən 7 faizə yüksəlib. Hədəf isə beynəlxalq ticarətdə türk ölkələrinin öz aralarındakı dövriyyəsinin 10 faizə çatdırılmasıdır.**

**TDT-nin baş katibi Kubanıçbek Ömuralıyev “Euroreporter”a müsahibəsində bildirib ki, təşkilat daha inteqrasiya olunmuş və nüfuzlu birliyə çevrilmək üçün bütün imkanlara malikdir. Öz maraq və dəyərlərinə uyğun olaraq beynəlxalq arenada öz mövqelərini gücləndirən türk dövlətlərinin əsas ana konseptlərindən biri iqtisadi gücü vahid blokda inkişaf etdirməkdir. K.Ömuralıyev qeyd edib ki, TDT ölkələri arasında böyük iqtisadi potensial var, hazırda həmin potensialın az bir hissəsi ticari mübadilələrə cəlb olunub. Bu imkanları ən azı 3-4 dəfə inkişaf etdirmək mümkündür.**

### Qarşılıqlı ticarətin 60 milyard dollara çatdırılması

Türk dövlətləri 2025-ci ildə birgə ticarəti ən azı 60 milyard dollara, əlavə dəyərləri isə 2 trilyon dollara çatdırmağı hədəfləyir. Ona görə də türk dövlətləri öz iqtisadi güc və potensiallarını vahid zəncirdə birləşdirməklə regionda və dünyada qlobal ticarətin və iqtisadiyyatın inkişafında rolunu artımaq niyyətindədir.

TDT ölkələri ticarət dövriyyəsinin artırılması üçün bir sıra hədəf nöqtələri müəyyənləşdirib ki, onlardan biri Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunda (Orta Dəhliz) nəqliyyat və logistikada bağlantılarını inteqrasiya etmək, dəhlizin daşıyıcılıq gücünü və rentabelliyini möhkəmləndirməkdir.Bu məqsədlə Orta Dəhliz boyunca infrastrukturun təkmilləşdirilməsi, azad gömrük və ticarət rejimlərinin təmin edilməsi istiqamətində ardıcıl tədbirlər görülməkdədir. TDT-nin baş katibi qeyd edib ki, hazırda nəqliyyat və gömrük əməkdaşlığı dərinləşdirilib və sadələşdirilmiş gömrük dəhlizinin formalaşdırılması işləri yekunlaşmaqdadır. Bu sahədə ən mühüm sazişlərdən biri sadələşdirilmiş gömrük dəhlizinin yaradılması ilə bağlı sazişdir. Sənəd qarşılıqlı ticarət əməliyyatları zamanı gömrük prosedurlarının asanlaşdırılması və daşınma-logistika rejiminin yumşaldılmasını, eləcə də ticarətin elektronlaşdırılmasını, rəqəmsal məlumat mübadiləsini nəzərdə tutur. Həmçinin beynəlxalq kombinə edilmiş yük daşımalarını təşviq edən sazişlərin imzalanması, rəqəmsallaşma sahəsində təşəbbüslərin (E-Permit, E-CMR və E-TIR) gerçəkləşdirilməsi, habelə logistikanı optimallaşdırmağa və ticarətin səmərəliliyini artırmağa kömək edən səylər regional iqtisadi inteqrasiyanı dərinləşdirməyə xidmət edir.



### 2030-cu ilin hədəfi: Orta Dəhlizdə 11 milyon ton daşınma

Türk dövlətləri iqtisadi-ticari dövriyyənin yüksəldilməsi məqsədilə asan vergi rejiminin də yaradılması istiqamətində iradəli addımlar atmaqdadır. TDT ölkələrinin demək olar ki, hamısı arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlər imzalanıb ki, bu da dövlətlərarası mal və xidmət ticarətini, kapitalın, texnologiyanın və şəxslərin sərbəst hərəkətini, eləcə də özəl sərmayələrin axınını stimullaşdırmaq məqsədi güdür.

Beləliklə, ölkələr arasında ticarətin liberallaşdırılması, sərhəd-keçid sistemlərinin rəqəmsallaşması sayəsində daşınan mallar barədə əvvəlcədən məlumat mübadiləsinin qurulması, gömrük prosedurlarının asanlaşdırılması və preferensial ticarətin təmin olunması nəzərdə tutulur ki, bütün bunlar son nəticədə əsas niyyət olan Azad Ticarət Rejiminin formalaşmasına səbəb olacaq. Bu isə türk dövlətlərinin regional iqtisadi inteqrasiyası istiqamətində bağlantılarını daha da artıracaq. Nəticədə yeni ticari-gömrük qaydaları sərhədkeçmə prosedurlarını asanlaşdırmaqla, vaxt və müddətləri qısaldacaq, türk dünyası arasında ticarətin optimallaşmasına imkan verəcək.

Proqnozlara görə, nəqliyyat-logistika sistemlərində asan gömrük rejiminin tətbiqi nəticəsində 2030-cu ilə qədər Orta Dəhlzidə daşınan yüklərin həcminin üç dəfə artaraq 11 milyon tona çatacaq.





### Banklar Şurası vahid ödəniş sistemi yaratmaq istəyir

TDT-nin digər hədəfi maliyyə sahəsində əməkdalığın gücləndirilməsidir. Ötən il “Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Mərkəzi (Milli) Banklar Şurasının yaradılması haqqında” memorandum imzalanıb və təsisat fəaliyyətə başlayıb. Şuranın başlıca hədəfi TDT ölkələrinin mərkəzi bankları arasında səmərəli əməkdaşlığın gücləndirilməsi, pul-kredit siyasətinin tənzimlənməsi, maliyyə sabitliyinin təmin olunması, ödəniş sistemlərinin inkişafı, maliyyə və rəqəmsal texnologiyaların tətbiqi və digər sahələrdə həyata keçirilən siyasətlərin vahid platformada əlaqəndirilməsidir.

TDT-nin maliyyə-bank strategiyasının əsas şaxələrindən biri də üzv ölkələr arasında qarşılıqlı maliyyə və investisiyaların hərəkətini stimullaşdırmaq, birgə sərmayə yatırımlarını təşviq etməkdir. Bu baxımdan həmin iqtisadi baxışı özündə əks etdirən və vahid maliyyə platformasına çevrilən Türk İnvestisiya Fondu ötən il noyabrın 1-dən fəaliyyətə başlayıb. 500 milyon dollar portfeli olan Fond ilk layihələrin icrasına start verib və yeni sahələrdə sərmayə qoyuluşları planlarını nəzərdən keçirir. İnvestisiya Fondu türkdilli ölkələrin iqtisadi-maliyyə-sərmayə baxışlarını və gələcək investisiya planlarını müəyyən etmək və həyata keçirmək üçün vahid donorluq funksiyasını üzərinə götürüb. Fondun məqsədi regiondaxili ticarəti genişləndirmək və iqtisadi fəaliyyətləri dəstəkləmək vasitəsilə TDT dövlətlərinin iqtisadi inkişafına töhfə verməkdir. Bu məqsədlərə çatmaq üçün Fondun maliyyə portfelinin növbəti mərhələdə daha da artırılaraq 1 milyard dollar təsdiq edilməsi nəzərdə tutulur.

### “Made in Turan” - birgə ticarətin nişanı

Türk dövlətləri faktiki olaraq “Made in Turan” brendini yaratmağa da nail olub. “Made in Turan” layihəsi türk dünyasının iqtisadi, mədəni və texnoloji potensialını dünyaya daha geniş rakursdan tanıtdırmaq məqsədi ilə yaradılıb. Milli brend konsepsiyasının başlıca hədəf və məqsədi türk dünyasının iqtisadi birliyini daha da möhkəmləndirmək və milli şirkətlərin “Made in Turan” adı altında dünyaya çıxışına motivasiyalar verməkdir. Konsepsiyaya uyğun olaraq, türk dövlətlərinin sahibkarlar üçün biznes təlimlərinin təşkili, investorlarla startaplar arasında əlaqələrin koordinasiyası, beynəlxalq tədbirlərdə birgə ixrac brendi altında iştirak etmək və tərəfdaş ölkələrlə əməkdaşlığın yeni yollarını müəyyən etmək, ixrac üzrə biznes modellərinin yaradılmasını dəstək göstərmək və digər prioritetlər müəyyənləşib. Türk dövlətləri birgə ticarət nişanı təsis etməklə iqtisadi layihələrin həyata keçirilməsi, qarşılıqlı investisiyaların cəlbi, müasir birgə istehsal və emal alyansının qurulması və ixrac coğrafiyalarının genişlənməsi sahəsində böyük imkanlar əldə etməyi düşünür.

Qarşıya qoyulmuş hədəflərin reallaşması sayəsində TDT-nin qlobal ticari coğrafiyalarda üstün mövqeyi möhkəmlənə, ticarət həcmləri və qlobal ÜDM-də payı arta bilər.

***E.CƏFƏRLİ***

**Almaniya Bundestaqına növbədənkənar seçkilərdən iki həftə sonra Almaniyada yeni hakim koalisiyanın potensial tərəfdaşları - Xristian Demokrat İttifaqı (CDU), Xristian Sosial İttifaqı (CSU) və Almaniya Sosial Demokrat Partiyası (SPD) əsas məsələlərdə kompromis əldə edə biliblər. Artıq tərəflər hökumətin formalaşdırılması ilə bağlı konkret danışıqlara başlamağa hazırdırlar.**

# Almaniyada koalisiya razılaşması...

## Mertz kansler olmaq üçün hazırkı iqtidarla anlaşır

### Sosial demokratlar "seçildi"...

Əsas müzakirə predmetlərindən olan miqrant məsələsində də razılıq əldə olunub. Belə ki, partiyalar Almaniya sərhədində sığınacaq istəyən potensial miqrantlardan imtina ilə bağlı mövqeləri razılaşdırıblar. Bu, koalisiyanın əsas tərəfi sayılan CDU/CSU-nun mühüm tələbi idi. CDU-nun sədri və ehtimal ki, Almaniyanın gələcək kansleri Fridrix Mertzin vurğuladığı kimi, Almaniyanın sərhədlərində sənədlərə nəzarət kütləvi şəkildə genişləndirilməlidir. Bundan əlavə, qaçqınların öz ailə üzvlərini Almaniyaya gətirmək imkanları daha da məhdudlaşdırılmalıdır.

Müzakirə olunan əsas predmetlərdən biri də iqtisadi böhranın aradan qaldırılması üçün planlardır. Belə ki, hakim koalisiyanın potensial gələcək tərəfdaşları investisiyaların cəlb edilməsi üçün tədbirlər görməyi və korporativ vergitutma sahəsində islahat aparmağı planlaşdırırlar. "Vətəndaş müavinətləri" (Bürgergeld) adlanan ödənişlərin ödənilməsi sahəsində də dəyişikliklər gözlənilir.



### Hamı həm razıdır, həm də narazı...

Koalisiyanın yaranması isə zərurətdən irəli gəlir. Belə ki, bütün partiyalar vahid hakim komanda formalaşdırmaq üçün lazım olan səsləri yığa bilməyiblər. O baxımdan "zorən müttəfiqlik" kimi xarakterizə olunan birliyə münasibət də birmənalı deyil. Məsələn, həm CDU lideri Fridrix Mertz, həm də SPD həmsədri Lars Klinqbeyl partiya orqanlarına koalisiya danışıqlarının rəsmi başlanmasını təsdiq etmək niyyətlərini irəli sürüblər. CDU-nun müttəfiqi CSU-nun sədri Markus Şöder isə ilkin danışıqların nəticələrini şərh edərkən bildirib ki, "uduzanlar və ya qaliblər yoxdur, yeni tərəfdaşlar var".

Kanslerliyə potensial namizəd olan Mertz isə Pasxa bayramına, yəni aprelin 20-dək koalisiya danışıqlarını başa çatdırmaq niyyətini bildirib.

### Bundesver dirçəldilməlidir

Qeyd edək ki, Bundesverin (Almaniya Silahlı Qüvvələri) yenidən silahlanması və infrastrukturun yenilənməsi məsələlərində sürətli yaxınlaşmaya baxmayaraq, mümkün idarəedici koalisiyadakı tərəfdaşların bir sıra mühüm məsələlərdəki mövqeləri ziddiyyətlidir. "Borc əyləci" məsələsində də artıq vahid fikirə gəlinib - belə ki, Fridrix Mertz əvvəlki fikirlərindən əl çəkib. Ölkəyə artan təhlükəsizlik təhdidləri fonunda müzakirələr aparan tərəfdaşlar artıq "borc əyləci"ndə islahatlar aparmaq istəyirlər. Bunun üçün Bundestaq üzvlərinin üçdə iki səs çoxluğu tələb olunur.

Vurğulandığı kimi, milli müdafiə məsələsində eyni fikir əldə olunub - Rusiya təhlükəsi və Trampın rəhbərliyi altında ABŞ-ın Avropaya yönəlik siyasətində dramatik dəyişiklik fonunda Bundesveri dirçəltmək lazım olduğu bildirilir. Almaniya anlayır ki, silahlı qüvvələri ürəkaçan vəziyyətdə deyil - kadr və təchizat çatışmazlığı ortadadır. Alman silahlı qüvvələri köklü şəkildə modernləşdirilməlidir.

Eyni zamanda, Almaniya onilliklərdir ki, dəmir yollarının, avtomobil yollarının və körpülərin təmiri və tikintisi ilə bağlı kəsirə malikdir, ölkə rəqəmsal texnologiyaların inkişafında da geri qalır. Bundestaqda heç kim bu sahələrdə qəti dəyişikliklərin zəruriliyinə şübhə etmir. İnfrastrukturun hazırkı tələblərə uyğunlaşdırılması üçün böyük vəsait lazımdır.

Ukrayna ilə bağlı siyasətə gəlincə, CDU/CSU ilə SPD arasında fikir ayrılıqları daralıb. Səbəb ABŞ və Ukrayna prezidentləri arasında baş verən açıq münaqişə və Amerikanın Kiyevə yardımını müvəqqəti dayandırmasıdır. Berlin nəyin bahasına olursa olsun Ukraynaya dəstəyi davam etdirməyi mühüm vəzifə hesab edir.

Transatlantik əlaqələrə gəldikdə isə həm mühafizəkarlar, həm də sosial demokratlar Trampla fərqli fikirə malikdirlər. Bununla belə, Mertz hələ də Tramp administrasiyası ilə dialoq üçün qapını açıq qoyur. Yeni kansler namizədi hələ də ABŞ-ı Avropanın müttəfiqi kimi saxlamağa və onu Ukraynaya təhlükəsizlik zəmanəti verməyə razı salmağa çalışır.

### AfD xəyanət adlandırıb

Birliyi ilk tənqid edənlərdən biri hazırda hakim koalisiyada təmsil olunan Yaşıllar partiyası olub. Partiyanın həmsədri Feliks Banaszak "yaşıl müxalifət"in ağıllı, yaradıcı və kifayət qədər sərt olacağına söz verib. Banaszak xatırladıb ki, CDU/CSU və SPD tərəfindən təklif olunan "vergi əyləci" islahatı Almaniya Federativ Respublikasının Əsas Qanununa dəyişikliklər tələb edir və Bundestaqda çoxluq tərəfindən qəbul edilməlidir. Bu isə o deməkdir ki, "Yaşılların" səsi olmadan bu alınmayacaq. O, CDU/CSU və SPD-nin müdafiə və infrastruktura əlavə vəsait xərcləmək niyyətindən də narazıdır.

İfrat sağçı Almaniya üçün Alternativ partiyasının liderləri Alisa Veydel və Tino Çurapalla mühafizəkarları seçki vədlərini pozmaqda və Sosial Demokratlara güzəştə getməkdə ittiham ediblər. "Bu sənəd Almaniyanın zərərinə olan bir razılaşmadır və planlaşdırılan koalisiya danışıqları üçün yaxşı heç nə vəd etmir" deyən AfD həmsədrləri "Seçki vədlərini pozmaq və SPD-nin borc çılğınlığına təslim olmaq müqabilində Fridrix Mertz yalnız qeyri-müəyyən vədlər, rəsmi güzəştlər və miqrasiya siyasəti ilə bağlı işlər əldə etdi",-deyə bildiriblər: "Sənaye elektrik qiymətləri və elektrik avtomobillərinə verilən subsidiyalar kimi köhnə sosialist reseptləri rifah və ya iqtisadi artım yaratmır, əksinə, planlı iqtisadiyyata və sənayesizləşməyə doğru tənəzzülü sürətləndirir. Bu fəlakətli nəticəyə görə, CDU öz seçicilərinə xəyanət etdi, konstitusiyaya ziyan vurdu."

### Azad demokratlar və Sol Partiya da əleyhinədir...

Bundestaqdakı Azad Demokrat Partiyasının (FDP) fraksiyasının rəhbəri Kristian Dürr də tənqidlərə qoşulub. Liberal FDP yeni Bundestaqda, ümumiyyətlə, təmsil olunmayacaq. "Həqiqi yardım və islahatlara ümid edən vətəndaşlar və şirkətlər çox məyus olacaqlar" deyən Dürr əlavə edib ki, nəhəng borc paketi yalnız fərdi, hissə-hissə tədbirlərlə kompensasiya olunur.

Sol Partiya isə CDU/CSU və SPD saziş layihəsinin kifayət qədər sosial yönümlü olmadığını bildirib.

***SADİQ***

# Trüdonun xələfi Trampla razılaşacaqmı?

## Keçmiş "baş bankir" ABŞ-a qarşı...

Yaxın zamanda Şimali Amerika qitəsində tarixdə yaşanmayan ciddi proseslərin cərəyan etməsinin şahidi ola bilərik - böyük ehtimalla, ABŞ ilə Kanada arasında diplomatik-siyasi və iqtisadi qarşıdurmaların baş verməsi gözlənilir. Görünən odur ki, ABŞ iddiasından geri çəkilmir, Kanada isə ümumiyyətlə, güzəştə getmək fikrindən uzaqdır. Tramp administrasiyasının Kanada məhsullarına tətbiq etdiyi taariflərə cavab olaraq, Ottava da ABŞ-a qarşı adevkat tədbirlər görməyə hazırlaşır. Təbii ki, qarşılıqlı cavab xarakterli addımlar və ortaq məxrəcə gəlməmək ABŞ-Kanada münasibətlərinin ziyanına olacaq.



**Kanadada yeni "nəfəs" - iqtisadçı Karni hansı yeniliklərlə gəlir?**

Qeyd edək ki, Kanadanın baş naziri Castin Trüdonun Liberal Partiyasının rəhbərliyindən istefa verməsinin ardından təşkilata yeni rəhbər seçilib. Martın 9-da Kanada Liberal partiyasında daxili səsvermə zamanı keçmiş mərkəzi bank rəhbəri Mark Karni hakim partiyanın yeni lideri seçilib - o, növbəti seçkilərə qədər Kanadanın müvəqqəti baş naziri kimi fəaliyyət göstərəcək. Mark Karni Harvard Universitetində iqtisadiyyat üzrə bakalavr dərəcəsi alıb və daha sonra Oksford Universitetində magistr və doktorantura təhsilini tamamlayıb. Karyerasına dünyanın ən nüfuzlu maliyyə şirkətlərindən biri olan "Goldman Sachs"da başlayan Karni, London, Tokio, Nyu-York və Toronto kimi mühüm maliyyə mərkəzlərində çalışıb. Karni 2008-ci ildə Kanada Mərkəzi Bankının sədri vəzifəsinə gəlib və həmin il baş verən qlobal maliyyə böhranında ölkənin bank sektorunu uğurla idarə edib. Onun strateji qərarları Kanada iqtisadiyyatını çöküşdən qoruyub və beynəlxalq arenada nüfuzunu artırıb.Eyni zamanda, o, "Bloomberg L.P." və "Brookfield Asset Management" kimi iri şirkətlərdə rəhbər vəzifələrdə çalışıb. Lakin bu ilin əvvəlində Karni siyasətə tam şəkildə qoşulmaq üçün bütün bu vəzifələrindən imtina etdi.

İqtisadiyyat və iqtisadi-maliyyə idarəetmə mexanizmləri üzrə çox güclü təcrübəsinin olmasına, beynəlxalq şirkətlərdə rəhbər vəzifələrdə fəaliyyət göstərməsinə baxmayaraq, Mark Karninin ölkənin baş naziri seçilməsi bəzi kanadalı siyasətçilər tərəfindən xoş qarşılanmayıb - müxalif qüvvələr onun xalqın maraqlarından daha çox beynəlxalq maliyyə institutlarının maraqlarını qoruyacağını iddia edir.

**Karninin Trampa münasibəti**

Mark Karni hakim partiyanın yeni lideri seçildikdən sonra partiya nümayəndələri qarşısında çıxış edib - o, çıxışında ABŞ-Kanada münasibətlərinə də toxunub. Karni ABŞ-la ticarət müharibəsində Kanadanın qalib gələcəyinə əmin olduğunu bildirib. Kanadanın gələcək baş naziri öz tərəfdaşlarına müraciətdə Kanadanın heç vaxt, heç bir şəkildə Amerikanın bir parçası olmayacağını deyib - o, qeyd edib ki, daha güclü iqtisadiyyat qurmaq, etibarlı tərəfdaşlarla yeni ticarət əlaqələri qurmaq və sərhədlərimizi qorumaq üçün zəruri tədbirlər görəcəyik. Karni Trampla qarşıdurmanın fövqəladə səylər tələb edəcəyi barədə xəbərdarlıq edib: "Amerikalıların resurslarımıza, suyumuza, torpağımıza, ölkəmizə ehtiyacı var. Əgər onlar istəklərinə nail olsa idilər, bizim həyat tərzimizi məhv edərdilər".

**İki ölkə arasında ticari və enerji qarşıdurmaları yaşana bilər**

Məsələ ilə bağlı politoloq Əlimusa İbrahimov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Karninin baş nazir olacağı müddətdə ABŞ-Kanada münasibətləri bir neçə istiqamətdə proqnozlaşdırıla bilər. "Trampın Kanada mallarına tariflər tətbiq etməsinə qarşı Kanada da cavab tədbirləri tətbiq edə bilər, çünki Karni artıq dollara qarşı əks tariflər təklif edəcəyi barədə anons verib. Alüminium, polad və süd məhsulları kimi əsas sektorlar üzrə mümkün mübahisələrin intensivləşməsi gözlənilir. Kanada ABŞ-dan uzaqlaşaraq öz ticarətini diversifikasiya edəcək, AB, Böyük Britaniya və Asiya ilə əlaqələri gücləndirmək üçün daha geniş təşəbbüs göstərəcək", - deyən politoloq Karninin enerji və iqlim siyasətində də ciddi addımlar atacağını bildirib: "İqlim fəaliyyətinin güclü müdafiəçisi olan Karni, Trampın enerji daşıyıcıları ilə bağlı siyasətinə qarşı çıxacaq. Keystone XL boru kəməri və ya digər enerji infrastrukturu layihələri ilə bağlı fikir ayrılıqları daha da qızışacaq".

**NATO çərçivəsində hərbi və müdafiə sahəsində əməkdaşlıqda narazılıq**

Ə.İbrahimov vurğulayıb ki, Karninin dövründə Kanadanın alyansda siyasi çəkisi arta bilər: "Tramp NATO müttəfiqlərini müdafiə xərclərini artırmadığına görə tənqid edir və bu baxımdan Kanada hərbi büdcəsini artırmaq üçün təzyiqlə üzləşə bilər. Əgər Tramp ABŞ-ın NATO-ya dəstəyini zəiflədərsə, Kanada qlobal məsələlərdə daha müstəqil təhlükəsizlik rolunu öz üzərinə götürə bilər".

Karni, ABŞ-ın potensial ayrılmasına qarşı tarazlıq yaratmaq üçün Avropa ilə daha güclü hərbi əlaqələr axtarışında olacaq.

**Suverenlik və milli gərginlik**

"Trampın Kanadanın "51-ci ştat" ola biləcəyinə dair şərhləri artıq sərt reaksiyalara səbəb olub. Karni hökuməti Kanadanın suverenliyini müdafiə etmək üçün daha iddialı bir yanaşma tətbiq edə bilər. Bu da diplomatik münaqişələrə səbəb olacaq," - deyə Ə.İbrahimov bildirib. O qeyd edib ki, yeni baş nazir Kanadanın ABŞ-dan asıllığını azaltmaq üçün digər müttəfiqləri ilə daha sıx təmaslar içərisində olacaq.

**Siyasi və ideoloji sahədə toqquşma**

Politoloq sonda deyib ki, Tramp və Karni çox fərqli siyasi ideologiyaları təmsil edirlər: "Trampın populizmi ilə Karninin texnokratik liberalizmi bir-birinə ziddir. İki lider arasında ictimai mübadilələr, Tramp və Trüdo arasındakı keçmiş gərginliyə bənzər şəkildə daha da qızışa bilər".

***Yunis ABDULLAYEV***

# Suriyada gərginlik davam edir

## Günahkarları aşkar və mühakimə etmək üçün fövqəladə komitə yaradılıb

Son günlər Suriyada vəziyyət yenidən gərginləşib. Latakiya, Tartus və Homs əyalətlərində yeni hökumətə bağlı təhlükəsizlik qüvvələri ilə tarixə qovuşmuş Əsəd rejiminin tərəfdarları arasında silahlı toqquşmalar yaşanır. Hazırkı hakimiyyət Latakiya və Tartus üzərində nəzarəti tam şəkildə bərqərar etsə də, bölgədə qarşı tərəfin hücumları davam edir. Toqquşmalarda hər iki tərəfdən 1000-ə yaxın itkilərin olduğu iddia edilir. Ölkənin müvəqqəti prezidenti Əhməd Əl-Şəraa üsyançıları silahı yerə qoymağa və təslim olmağa çağırıb.



**Üsyan necə baş verib?**

2024-cü ilin noyabr-dekabrında müxalif "Heyət Təhrir əş-Şam" -ın Dəməşq daxil olmaqla Suriyanın bir çox şəhərlərini nəzarətə götürdükdən sonra ölkəyə 61 il rəhbərlik edən Əsəd rejimi sona çatdı və rejimin rəhbəri Bəşər Əsəd ailəsi ilə birlikdə ölkəni tərk edərək Rusiyaya sığındı. Vaxtilə Əsəd rejiminə xidmət edən hərbçilər və silahlı qruplaşmalar isə ələvilərin çoxluq təşkil etdiyi Latakiya və Tartusa çəkildi. Son günlərdə köhnə rejimin qalıqlarının hər iki bölgədə yeni hakimiyyətə qarşı üsyana qalxacağı ilə bağlı ehtimallar günü-gündən artırdı. Türkiyənin "Hürriyət" qəzetinin məlumatına görə, üsyandan bir neçə gün öncə keçmiş Əsəd rejiminin generallarından biri olan Qiyas Süleyman Dallanın rəhbərliyi ilə "Suriyanın Azadlığı naminə Hərbi Şura"-nın əsası qoyulub. Məhz bundan sonra - martın 6-da Latakiyanın Cəbliyə bölgəsində üsyançı qruplar yeni Suriya hakimiyyətinin təhlükəsizlik qüvvələrinə hücum ediblər. Hücum nəticəsində 15 suriyalı hərbçi həlak olub. Əsədi yenidən hakimiyyətə qaytarmaqda iddialı olan Dalla Suriya hakimiyyətinin qüvvələrinin Latakiya və Tartus bölgələrindən dərhal geri çəkilməsini tələb edib. Üsyançı general hökumət başçısı Əl-Şəraa ilə dialoqa hazır olduğunu da bəyan edib.

**Üsyana xarici qüvvələr dəstək verib?**

Səsləndirilən bəzi iddialara görə, Əsədin tərəfdarları hazırkı Dəməşq hakimiyyətini devirmək üçün "Hizbullah" və SEPAH-a bağlı proksi qüvvələrin, o cümlədən PKK terror təşkilatının Suriya qolu olan PYD/YPG silahlı qruplaşmaların dəstəyi ilə üsyana başlayıblar. Lakin "Hizbullah"ın rəhbərliyi bu iddiaları təkzib edib. PYD və Tehran bu iddialara hələ münasibət bildirməyib.

**Əl-Şəraa hakimiyyəti antiterror əməliyyatlarını davam etdirir**

Türkiyənin "Milliyət" qəzetinin məlumatında qeyd olunur ki, martın 6-dakı hücumdan sonra Suriya hakimiyyəti Latakiya və Tartusda silahlı üsyanın qarşısını almaq və təhlükəsizliyi bərqərar etmək üçün hər iki əraziyə tanklar, zirehli transportyorlar və çoxsaylı reaktiv yaylım atəşi sistemləri kimi ağır silahlar daxil olmaqla yüzlərlə maşından ibarət silahlı qüvvələr göndərib. Həm Latakiya, həm də Tartusda genişmiqyaslı hərbi əməliyyatlar həyata keçirilib. Bununla yanaşı, Suriya müdafiə nazirliyinin tabeliyində hərbi və təhlükəsizlik əməliyyatları zamanı mümkün pozuntuları araşdırmaq və günahkarları mühakimə etmək üçün fövqəladə komitə yaradılıb.

Latakiya və Tartusda gecə saatlarında başlayan komendant saatı uzadılıb. Suriyanın "SANA" dövlət agentliyinin məlumatına görə, Suriya hakimiyyətinin antiterror əməliyyatları nəticəsində bir çox üsyançı zərərsizləşdirilib, bir çoxları isə silahlarını yerə buraxaraq ərazidən qaçıb. Suriya müdafiə nazirliyinin mətbuat katibi Həsən Əbdül Qani Latakiya və Tartusda silahlı üsyana qalxmış keçmiş rejimin qalıqlarını ələ keçirmək üçün əməliyyatın daha da genişlənəcəyini bildirib. Suriyanın Baş Kəşfiyyat İdarəsinin başçısı Ener Hattap "X" sosial hesabında bəyan edib ki, yeni hakimiyyət Suriya xalqının təhlükəsizliyini təmin etmək və ölkədə vəziyyəti tam sabitləşdirməkdə qərarlıdır - eyni zamanda, o, üsyançıların silahı yerə qoyub təslim olmaqdan başqa çarəsinin olmadığını da qeyd edib.

Suriyanın rəhbəri Əhməd Əl-Şəraa da üsyançıları təslim olmağa çağırıb - o, Suriya xalqının birliyinin qorunmasının vacibliyini vurğulayıb: "Biz sizin dağıtdığınız bu ölkəni yenidən qurmaq istəyən xalqıq və heç kimin qanını tökmək fikrimiz yoxdur. Çox gec olmadan silahlarınızı yerə qoyun," - deyə Əl-Şəraa vurğulayıb.

**Üsyançılar rus bazasına sığınıb**

Suriya İnsan Hüquqları Müşahidə Qrupunun məlumatına görə, yüzlərcə üsyançı və onların ailələri Rusiyanın Latakiyadakı Hmeymim aviabazasına sığınıb. Bazada ailələrin sayısı artmaqdadır. Onların Rusiyaya aparılacağı iddia olunur.

**Türkiyə, İran və Rusiyadan reaksiya**

Baş verənlərdən narahat olduğunu bildirən Rusiya XİN rəhbərliyi Suriyada keçid dövründə etnik və dini mənşəyindən asılı olmayaraq, vətəndaşların təhlükəsizliyinin təmin edilməsinə və milli birliyin qorunmasına çağırıb. Tehran isə Suriyada bütün etnik və dini qrupların dinc yaşamasının zəruriliyini vurğulayıb.

Türkiyə Suriyada xalqın sülh və rifah içərisində yaşamaq hüququnu hədəfə alan hər cür hərəkətə qarşı olduğunu, hazırkı hadisələrin Suriyanın və regionun təhlükəsizliyinə təhdid yaratdığını bəyan edib. Hakim Ədalət və İnkişaf Partiyasının mətbuat katibi Ömər Çelik Adana şəhərində təşkil olunan mətbuat konfransında Suriyanın ərazi bütövlüyünə və suverenliyinə qarşı edilən hücumların qəbuledilməz olduğunu bildirib: "Biz Latakiyada Suriyanın təhlükəsizlik qüvvələrinə qarşı son hücumu Suriyada sülh, sabitlik və təhlükəsizliyə qarşı edilən terror hücumu kimi qiymətləndiririk. Biz Suriyanın milli birliyini və ərazi bütövlüyünü dəstəkləyirik".

***Yunis ABDULLAYEV***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




## Ramazan ayı: 11-ci günün duası

*"Allahummə həbbib ileyyə fihil-ihsan. Və kərrih ileyyə fihil-fusuqə vəl-isyan. Və hərrim ələyyə fihis-səxətə vən-niyran. Bi-ovnikə ya ğiyasəl-müstəğisin".*

**Tərcüməsi:**

*"İlahi, bu gün ehsan etməyi mənə sevdir! Bu gün fisq və asilikdən məni ikrah etdir! Bu gün öz qəzəbini və cəhənnəm atəşini məndən uzaqlaşdır! Yardımına and verirəm, ey fəryad edənlərin dadına çatan!"*

# "Küləkli çərşənbə"

## Yel çərşənbəsi haqqında bilmədiklərimiz...

Bu gün Novruz çərşənbələrindən üçüncüsü- Yel çərşənbəsidir. Bu çərşənbə xalq arasında "Külək oyadan çərşənbə" "Küləkli çərşənbə", "Yelli çərşənbə" adı ilə də tanınır. İnanclara görə, bu çərşənbədə külək oyanmış suyu, odu hərəkətə gətirir. Şifahi xalq yaradıcılığında yelin Tanrı olması ilə bağlı müxtəlif nəğmə, əfsanə, rəvayət, mif, inanc və məsəllər var. Novruz şənliklərində icra olunan "Yel baba" mərasimi də öz kökü etibarilə qədim əcdadlarımızın yel Tanrısına etiqadı ilə əlaqədardır.

Bir zamanlar yalnız sudan ibarət olan həyata torpaq sonradan rəng qatdı. Amma həyatın varlığı üçün hava, yel də lazım idi. Yalnız o, həyatı formalaşdıra bilərdi. Qədim türk mifologiyasının yelin funksiyası da məhz budur -həyatı formalaşdırmaq...




### Yel çərşənbəsinin unudulmuş adətləri

"Yüyət günü": Yel çərşənbəsində "yüyət günü"nü mütləq keçirərdilər. Yüyət günü son illərə qədər az da olsa, bəzi kəndlərdə qalırdı. Bu gün insanın özü təmizlənməklə yanaşı, ev-eşiyini də səliqəyə salır, həyət-bacasını təmizləyir. Bu iməclikdən başqa, həm də bir ayin, inancdır.

Cıdır falı: Bunu oğlanlar icra edirdi. Kəndin cavanları cıdıra gedər, hansısa atı ürəyində nişanlayıb niyyət tutardılar. Kimin işarələdiyi at birinci olardısa, o zaman həmin adamın niyyəti yeni ildə gerçəkləşə bilərdi. Buradakı at və cıdır isə qədim türkün düşüncə sistemindən qopmadır. Həm də yel kimi sürətli olan atın sahibini il ərzində bolluq, ruzi gözləyirdi.

Çökə: Bu, unudulmuş adət yox, unudulmuş şirniyyat növüdür. Bizim bildiyimiz şəkərburaya oxşasa da, ondan əsaslı dərəcədə fərqlənir. Üzərindəki işarələr qədim xalqımızın mifoloji düşüncəsini özündə əks etdirib. Çökə ilk olaraq evə gələn qonağa verilirdi.

Başmaq falı: İlaxır çərşənbə axşamı ərgən qızlar evin qapısından arxası həyətə doğru qalıb sağ çiyin üzərindən başmaq tullayırlar. Əgər başmağın burun tərəfi evə daban tərəfi yola sarı düşərsə, deməli, qarşıdakı il həmin qız yenə də bu evdə qalacaq. Yaxud əksinə olarsa, o zaman çox yaxında xeyir xəbər eşidəcəklərinə inanırlar. Buradakı başmaq isə arxaik dünyagörüşlə əlaqədardı.



### Yel çərşənbəsinin inancları

Yel çərşənbəsində əsən soyuq və isti küləklər yazın gəlişindən xəbər verir. Gün ərzində küləyin bir neçə dəfə dəyişməsi, əslində, onun özünün - küləyin, havanın təmizlənməsi, yenilənməsi kimi qəbul edilir.

Bu çərşənbəyədək sanki mürgüləyən külək oyanır, aləmi dolaşaraq suyu, odu hərəkətə gətirir. Yel çərşənbəsində əsən mehin də, küləyin də daxilində bir hərarət olur.

Qədim adətə görə, bu çərşənbədə qəfəsdə saxlanılan quşları və heyvanları azadlığa buraxmaq lazımdır.

Bu çərşənbə ilə də bağlı illərin sınağından çıxaraq bu günümüzə qədər yaşamış və özünü doğrultmuş xalq hikmətləri, atalar sözləri var. Məsələn, "Yel əsib qoz tökülüb", "Yelnən gələn selnən gedər", "Yel apardığını qaytarmaz", "Yellə dost olan yellənə-yellənə qalar", "Yel bağlayanı el açar", "Külək kimi hərdən bir yana əsmə", "Yel əsir, yengələr oynayır", "Yel aparan yelinki, yerdə qalan mənimki", "Kələknən gələn, küləknən gedər", "Yel qayadan nə apaarar"...

Bayram səviyyəsində qeyd edilən digər çərşənbələr kimi Yel çərşənbəsində qadınlar, qızlar xüsusi hazırlıqlar görürlər. Ev-eşik, həyət-baca süpürülüb təmizlənir, yorğan-döşək, xalça-palaz, geyimlər həyətə çıxarılır, barıların, məhəccərlərin üstünə sərilərək çırpılır. İnama görə, Yel çərşənbəsində yorğan-döşək, xalça-palaz, geyimlər havaya verilərsə, təmizlənər, paklanar.

Şər qarışanda tonqallar qalanır. Tonqal başına toplaşanlar azar-bezardan, bədbəxtlik və fəlakətlərdən xilas olmaq, günahlardan qurtulmaq niyyəti ilə üç dəfə tonqalın üstündən atlanırlar. İnanclara görə, çərşənbə axşamları ancaq xoş sözlər deyilməlidir. Ona görə də digər çərşənbələr kimi, Yel çərşənbəsində də gözəl diləklər, alqışlar dilə gəlməlidir.

Xatırladaq ki, martın 18-də İlaxır çərşənbə - Torpaq çərşənbəsi olacaq. Azərbaycana yaz fəslinin daxil olması isə martın 20-si Bakı vaxtı ilə saat 13:01:25-ə təsadüf edəcək. Bu zaman gecə ilə gündüz bərabərləşir və Günəş Şərqdə doğub, Qərbdə batır.

*Yeganə*

# Geyimi elə seçək ki...

## Yazın istisindən, qışın soyuğundan qoruna bilək

**Yazın əvvəli, qışın sonundayıq. Fəslin tələbinə uyğun olaraq havalar daim dəyişir. Səhərlər hər nə qədər isti olsa da, axşam saatlarında havalar bir xeyli soyuyur. Bəzən külək, bəzən isə yağış bu aylarda necə geyinəcəyimizlə bağlı qərar verməyimizdə çətinlik yaradır. Xüsusilə, mart-aprel aylarında küçədə, işdə hər cür geyimdə insan görürük. Kimisi hələ də paltodadır, kimisi də nazik gödəkcə geyinir.**
**Qeyd edək ki, havaların bu cür dəyişməsi müəyyən sağlamlıq problemlərinə də yol açır. Belə ki, səhər saatlarında havanın isti keçməsi aldadıcı olur və insanların əksəriyyətinin daha nazik geyinməsinə şərait yaradır.**

### Sintetik parçalardan istifadə etmək olmaz



Mütəxəssislərin fikrincə, isti havalarda parçanın materialına fikir vermək lazımdır. Hətta parçanın materialı rənglərdən də önəmli rol oynayır. Ona görə də bu aylarda təbii materiallara üstünlük verilməlidir. Xüsusilə, mart-aprel aylarında sintetik tərkibli geyimlərdən qətiyyən istifadə etmək olmaz. Çünki bu tip geyimlər daha tez tərləməyə şərait yaradır.

### Qapalı geyimlərə üstünlük verilməlidir, amma...



Mütəxəssislərin fikrincə, havaların necə keçməsindən asılı olmayaraq, bədənə oturmayan, gen-bol biçimdə olan geyimlər daha faydalıdır. Belə ki, havalar mülayim keçsə də açıq geyimlərdən istifadə etmək bir o qədər də məqsədəuyğun deyil. Çünki bu halda Günəş şüaları bədənə birbaşa nüfuz edir və bu, insan orqanizminə mənfi təsir göstərir. Yaxşı olardı ki, nisbətən qapalı geyimlərə üstünlük verilsin. Amma bu o demək deyil ki, tünd rəngli qapalı geyimlərdən istifadə edilməlidir. Açıq ağ rəngli tonlarda qapalı geyinmək orqanizm üçün daha faydalıdır. Çünki ağ rəng Günəş şüalarını geri qaytarır və nəticədə dəri nəfəs alır. Ultrabənövşəyi şüalardan qorunmaq üçün bu, ən əlverişli üsullardandır.

### Uzaq durun!

Mütəxəssislər, həmçinin bildirirlər ki, havalar isindikcə süni tərkibli parçalardan hazırlanan paltarları geyinmək olmaz. Paltar seçimində çox açıq geyimlərin istifadəsi sağlamlıq baxımından da yolverilməzdir. Belə dövrlərdə daha çox havakeçirici paltarlardan istifadə edilməlidir. Bu mənada, istər baş örtükləri, istərsə də digər geyimlər pambıq materialından olmalıdır ki, bədəni havalandıra bilsin. Süni tərkibli parçalardan mümkün qədər uzaq durmaq lazımdır. Mülayim havalarda geyim elə seçilməlidir ki, istinin orqanizmə neqativ təsirini minimuma endirə bilsin.

*Yeganə BAYRAMOVA*

### Allah rəhmət eləsin!

"Yeni Azərbaycan" qəzetinin Baş redaktoru Alqış Həsənoğlu və qəzetin kollektivi "Yeni Azərbaycan" qəzetinin Baş redaktorunun müavini Nəzirə Nurullayevaya anası
**DÜRNİSƏ XANKİŞİYEVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir



### Şenol Güneş istefaya göndərildi

Türkiyənin "Trabzonspor" komandasının baş məşqçisi Şenol Güneş istefaya göndərilib. AZƏRTAC Türkiyə mətbuatına istinadən xəbər verir ki, son vaxtlar qeydə alınan uğursuz nəticələr səbəbindən 73 yaşlı mütəxəssislə yollar ayrılıb. Təcrübəli çalışdırıcı bugünkü məşqdə komandanın sükanı arxasında olmayacaq. Ona klubun idman direktoru vəzifəsində çalışmaq təklif edilib.

Qeyd edək ki, Şenol Güneş ötən ilin sentyabr ayında "Trabzonspor"a baş məşqçi təyin olunmuşdu. Qara dəniz təmsilçisi Türkiyə Superliqasında 25 oyundan sonra 32 xalla 10-cu pillədə qərarlaşıb.



### Azərbaycan - Haiti oyununun biletləri satışa çıxarılıb




Azərbaycan və Haiti yığmaları arasında keçiriləcək yoldaşlıq görüşünün biletləri satışa çıxarılıb.

AZƏRTAC AFFA-nın rəsmi saytına istinadən xəbər verir ki, qiymətlər sektorlara görə 2 və 5 manat təşkil edir. VİP sektoruna biletlərin qiyməti isə 10 manatdır. Biletləri "İtickets" və satış kassalarından əldə etmək mümkündür.

Oyun günü matçın keçiriləcəyi stadionun kassalarında da bilet satışı təşkil olunacaq. Qeyd edək ki, martın 22-də Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda keçiriləcək Azərbaycan - Haiti qarşılaşması

### Bellingemin zədəsi ağır deyil



İspaniya La Liqasının XXVII turunun "Rayo Valyekano" ilə keçirilən oyununda zədələnən Cud Bellingemin durumuna aydınlıq gəlib. AZƏRTAC xəbər verir ki, "kral klubu"nun baş məşqçisi Karlo Ançelottinin sözlərinə görə, 21 yaşlı ingiltərəli yarımmüdafiəçinin zədəsi ciddi deyil.

"Real Madrid" "Rayo Valyekano"nu 2:1 hesabı ilə məğlub edib.

### Amerikalı basketbolçu: Azərbaycan təhlükəsiz ölkədir

"Azərbaycan çox rahat və təhlükəsiz ölkədir". AZƏRTAC xəbər verir ki, bu sözləri "Abşeron" komandasının amerikalı basketbolçusu Sedrik Conson klubun mətbuat xidmətinə müsahibəsində deyib.




O, Azərbaycanda gəzməkdən ən çox zövq aldığı yerlər və sevdiyi yeməklər barədə danışıb: "Bakıda mənə ən maraqlı gələn məkanlar sırasında Xalça muzeyi və İncəsənət muzeyini fərqləndirərdim. Boş vaxtlarımda müxtəlif mədəniyyətlər haqqında yeni şeylər öyrənməkdən və sənət əsərlərinə baxmaqdan zövq alıram. Azərbaycanı fərqli mədəniyyəti olduğu üçün seçdim. Buraya uyğunlaşmaq üçün bir az vaxt lazım oldu. Yuxu ilə əlaqədar hələ də problem yaşayıram, amma başqa şeylər asanlaşdı. Yeməklərlə bağlı isə heç bir problem yaşamadım, çünki qidalar Amerika yeməklərindən daha sağlamdır. Hava isə ölkəmin havasına çox bənzəyir. Burada sevimli yeməyim pizzadır. Bakıda içdiyim bir çox meyvə şirələrinə və ümumiyyətlə, meyvələrin gözəl dadına aşiq oldum. Toyuq dönəri və plov da çox dadlıdır".

### "Ordu" klubunda amerikalı basketbolçu...

"Ordu" basketbol komandası heyətini yeni oyunçu ilə gücləndirib. Klubdan AZƏRTAC-a verilən məlumata görə, Bakı təmsilçisi amerikalı basketbolçu Jervon Pressleyin keçidini rəsmiləşdirib.

O, daha əvvəl ABŞ və Avropada bir sıra klublarda çıxış edib.




Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4869**
**Sifariş: 557**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova